AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARI KONFEDERASİYASI

# ÜLFƏT qəzeti

QƏZET 1991-Cİ İLDƏN ÇIXIR

ŞƏNBƏ, 24 FEVRAL 2018-Cİ İL / №08 (1078)

WWW.ULFET-AZ.COM / ULFET-AZ@MAIL.RU



# Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə uğurlu sosial siyasət həyata keçirilir

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə uğurlu sosial siyasət həyata keçirilir. Bu istiqamətdə davamlı mühüm addımlar atılır. Demək olar ki, hər il əməkhaqları, təqaüdlər, sosial müavinətlər artırılır. Aztəminatlı ailələrə ünvanlı sosial yardımlar verilir, şəhid ailələrinin, Qarabağ əlillərinin, ümumiyyətlə, sağlamlığı məhdud olan insanların sosial müdafiəsi təmin edilir.*

*Son günlərdə möhtərəm İlham Əliyev daha bir neçə sosialyönümlü fərman və sərəncam imzalamışdır. Əhalinin rifah halına birbaşa təsir göstərən həmin sənədləri oxucularımıza təqdim edirik.*

## Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün artırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, şəhid ailəsinin sosial müdafiəsini gücləndirmək və onlara dövlət qayğısını artırmaq məqsədilə qərara alıram:

1. Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün aylıq məbləği 2018-ci il martın 1-dən 10 faiz artırılsın.

***2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:***

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Sərəncama uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ-hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının və normativ xarakterli aktların bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 19 fevral 2018-ci il**

## Müharibə əlillərinə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün artırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, müharibə əlillərinin sosial müdafiəsini gücləndirmək və onlara dövlət qayğısını artırmaq məqsədilə qərara alıram:

1. Müharibə əlillərinə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün aylıq məbləği 2018-ci il martın 1-dən 10 faiz artırılsın.

***2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:***

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Sərəncama uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ-hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının və normativ xarakterli aktların bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 19 fevral 2018-ci il**

## 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlil olmuş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün artırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlil olmuş şəxslərin sosial müdafiəsini gücləndirmək məqsədilə qərara alıram:

1. 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlil olmuş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün aylıq məbləği 2018-ci il martın 1-dən 10 faiz artırılsın.

***2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:***

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Sərəncama uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ-hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının və normativ xarakterli aktların bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 19 fevral 2018-ci il**

## Əlillik ümumi xəstəlik, hərbi xidmət dövründə xəstələnmə, əmək zədəsi və peşə xəstəliyi, hərbi əməliyyatlar keçirilən zonada olmaqla əlaqədar, Çernobıl AES-də qəzanın ləğvi ilə əlaqədar səbəblərdən baş verdikdə I qrup əlilliyə görə sosial müavinət alanlara Azərbaycan Respublikası Prezidentinin təqaüdünün artırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Əlillik ümumi xəstəlik, hərbi xidmət dövründə xəstələnmə, əmək zədəsi və peşə xəstəliyi, hərbi əməliyyatlar keçirilən zonada olmaqla əlaqədar, Çernobıl AES-də qəzanın ləğvi ilə əlaqədar səbəblərdən baş verdikdə I qrup əlilliyə görə sosial müavinət alanlara Azərbaycan Respublikası Prezidentinin təqaüdünün aylıq məbləği 2018-ci il martın 1-dən 10 faiz artırılsın.

***2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:***

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Sərəncama uyğunlaşdırılmasına dair təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ-hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını bir ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının və normativ xarakterli aktların bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 20 fevral 2018-ci il**

## Əfqanıstanda sovet qoşunlarının tərkibində beynəlmiləl borcunu yerinə yetirərkən həlak olan, itkin düşmüş və məhkəmə qaydasında ölmüş elan edilən hərbi qulluqçuların ailələri üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün artırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Əfqanıstanda sovet qoşunlarının tərkibində beynəlmiləl borcunu yerinə yetirərkən həlak olan, itkin düşmüş və məhkəmə qaydasında ölmüş elan edilən hərbi qulluqçuların ailələrinin sosial müdafiəsini gücləndirmək məqsədilə qərara alıram:

1. Əfqanıstanda sovet qoşunlarının tərkibində beynəlmiləl borcunu yerinə yetirərkən həlak olan, itkin düşmüş və məhkəmə qaydasında ölmüş elan edilən hərbi qulluqçuların ailələri üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün aylıq məbləği 2018-ci il martın 1-dən 10 faiz artırılsın.

***2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:***

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Sərəncama uyğunlaşdırılmasına dair təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ-hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını bir ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının və normativ xarakterli aktların bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 20 fevral 2018-ci il**

**Həmkarlar ittifaqına üzv ol - iş yerinə təminat al!**

*(Əmək Məcəlləsinin 80-ci maddəsinə əsasən, işəgötürən həmkarlar ittifaqı üzvünü bu təşkilatın razılığı olmadan işdən azad edə bilməz)*

Azərbaycan Respublikasının Nazirlər Kabineti, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatlarının Milli Konfederasiyası arasında 2018-2019-cu illər üçün **BAŞ KOLLEKTİV SAZİŞ**

BAX SƏHİFƏ: 4-5

**"Xocalı şəhidləri danışır" kitabının təqdimatı keçirilib**

BAX SƏHİFƏ: 5

**AHİK-in V qurultayında çıxışlar**

BAX SƏHİFƏ: 2, 3, 6

## 1941-1945-ci illər Böyük Vətən müharibəsində iştirak etmiş bəzi kateqoriyalardan olan şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün artırılması haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, 1941-1945-ci illər Böyük Vətən müharibəsində iştirak etmiş bəzi kateqoriyalardan olan şəxslərin sosial müdafiəsini gücləndirmək və onlara dövlət qayğısını artırmaq məqsədilə qərara alıram:

1. 1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və "Leninqradın müdafiəsinə görə" medalı, "Leninqrad mühasirəsində yaşayan" döş nişanı ilə təltif edilmiş şəxslərə (müharibə əlilləri istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin təqaüdünün aylıq məbləği 2018-ci il martın 1-dən 10 faiz artırılsın.

***2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:***

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Sərəncama uyğunlaşdırılmasına dair təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ-hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını bir ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının və normativ xarakterli aktların bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 20 fevral 2018-ci il**

## Məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin artırılması haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, məcburi köçkünlər və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsini gücləndirmək və onlara dövlət qayğısını artırmaq məqsədilə qərara alıram:

1. Məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin məbləği 2018-ci il martın 1-dən 10 faiz artırılsın.

**2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:**

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Sərəncama uyğunlaşdırılmasına dair təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ-hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını bir ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının və normativ xarakterli aktların bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 21 fevral 2018-ci il**

## Fəxri adlara görə aylıq təqaüdlərin artırılması və "Fəxri adlara görə aylıq təqaüdün verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 4 iyul tarixli 878 nömrəli Sərəncamında dəyişikliklər edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafında xidmətlərinə və yüksək peşə ustalığına görə fəxri adlara layiq görülmüş şəxslərin sosial müdafiəsini gücləndirmək və onlara dövlət qayğısını artırmaq məqsədilə qərara alıram:

1. Fəxri adlara görə aylıq təqaüdlərin məbləği 2018-ci il martın 1-dən artırılaraq "Xalq" fəxri adı üçün 150 (yüz əlli) manat, "Əməkdar" fəxri adı üçün 100 (yüz) manat müəyyən edilsin.

2. "Fəxri adlara görə aylıq təqaüdün verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 4 iyul tarixli 878 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 7, maddə 609, № 11, maddə 1013; 2007, № 4, maddə 361; 2013, № 8, maddə 975, № 11, maddə 1454) 1-ci hissəsinin birinci abzasında "100 manat" sözləri "150 manat" sözləri ilə, "60 manat" sözləri "100 manat" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 22 fevral 2018-ci il**

## Gənc istedadlar üçün xüsusi təqaüdün məbləğinin artırılması və "Gənc istedadlar üçün xüsusi təqaüdlər təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 13 sentyabr tarixli 662 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, gənc istedadlara dövlət qayğısını artırmaq məqsədilə qərara alıram:

1. Azərbaycanın gənc istedadlarının "Qızıl kitabı"na adları yazılmış gənc istedadlar üçün xüsusi aylıq təqaüdün məbləği 2018-ci il martın 1-dən artırılaraq 400 (dörd yüz) manat müəyyən edilsin.

2. "Gənc istedadlar üçün xüsusi təqaüdlər təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 13 sentyabr tarixli 662 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997-ci il, № 3, maddə 251; 2007, № 2, maddə 146) 1-ci hissəsində "300" rəqəmləri "400" rəqəmləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 22 fevral 2018-ci il**

## Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün məbləğinin artırılması və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkənin elm, təhsil, mədəniyyət, iqtisadiyyat, dövlət idarəçiliyi və digər sahələrdə böyük əməyi olan şəxslərin xidmətlərinin qiymətləndirilməsi və onların sosial müdafiəsinin daha da gücləndirilməsi məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün məbləği 2018-ci il martın 1-dən artırılaraq 1450 (min dörd yüz əlli) manat müəyyən edilsin.

2. "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 6, maddə 329, № 10, maddə 587; 2004, № 12, maddə 1006; 2005, № 3, maddə 167; 2006, № 11, maddə 939; 2007, № 12, maddə 1235; 2008, №7, maddə 621; 2016, № 10, maddə 1628) 2-ci hissəsində "1300 (min üç yüz)" sözləri "1450 (min dörd yüz əlli)" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 22 fevral 2018-ci il**

## Azərbaycanın Milli Qəhrəmanı adı verilmiş şəxslərin sosial müdafiəsinin gücləndirilməsi və "Azərbaycanın Milli Qəhrəmanı adı verilmiş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 14 iyul tarixli 258 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının müstəqilliyi, ərazi bütövlüyü və tərəqqisi uğrunda mübarizədə yenilməz rəşadət və misilsiz vətənpərvərlik nümunəsi göstərərək Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüş şəxslərin və onların ailə üzvlərinin sosial müdafiəsini daha da gücləndirmək məqsədilə qərara alıram:

1. Azərbaycanın Milli Qəhrəmanı adı verilmiş hər bir şəxs üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün aylıq məbləği 2018-ci il martın 1-dən artırılaraq 1500 (min beş yüz) manat müəyyən edilsin.

2. "Azərbaycanın Milli Qəhrəmanı adı verilmiş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 14 iyul tarixli 258 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 7, maddə 594; 2008, № 5, maddə 373; 2013, № 8, maddə 897; 2016, № 10, maddə 1627) 1-ci hissəsində "1300 (min üç yüz)" sözləri "1500 (min beş yüz)" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 20 fevral 2018-ci il**

# AHİK-in V QURULTAYINDA ÇIXIŞLAR



**Sevinc HAQVERDİYEVA,**
*"Bakı Tikiş Evi" ASC Həmkarlar İttifaqı Komitəsinin sədri*

**Hörmətli qurultay iştirakçıları!**
**Hörmətli cənab sədr! Hörmətli qonaqlar!**

"Bakı Tikiş Evi" Açıq Səhmdar Cəmiyyəti dövlət dəstəyi nəticəsində qısa müddətdə respublikamızın qeyri-neft sektorunda çalışan ən böyük sənaye kollektivlərindən birinə çevrilmişdir. Demək olar ki, fabrikimiz yenidən qurulmuş, istehsalat prosesi tamamilə mexanikləşdirilmiş və avtomatlaşdırılmışdır. Bütün bunlar iş şəraitini xeyli yaxşılaşdırmış, işçilərin sosial tələblərinin daha geniş miqyasda ödənilməsinə imkan vermişdir. Bu imkan şirkət rəhbərliyi ilə həmkarlar ittifaqı komitəsi arasında bağlanılan kollektiv müqavilədə də öz əksini tapmışdır. Kollektiv müqavilədə götürülən öhdəliklər ciddi nəzarətdə saxlanılır və məsuliyyətlə icra olunur.

Kollektivimiz 2016-cı ildə "Sağlam və təhlükəsiz əmək şəraitinin yaradılması uğrunda ən yaxşı müəssisə (təşkilat)" Respublika baxış-müsabiqəsinin qalibi olaraq AHİK-in Fəxri diplomu və qiymətli hədiyyəsini almışdır.

**Hörmətli qurultay iştirakçıları!**

Ölkəmizdə həmkarlar ittifaqlarının səmərəli fəaliyyət göstərməsi üçün mükəmməl qanunvericilik bazası yaradılmışdır. Sahə həmkarlar ittifaqı qanunvericiliyin verdiyi imkanlardan səmərəli faydalanaraq, mütəmadi olaraq kompleks tədbirlər hazırlayıb həyata keçirir. Hesabat dövründə Sahibkarlıq, Özəl Elm və Yüngül Sənaye İşçilərinin HİRK-i daha da güclənərək üzvlərimizin əmək, sosial-iqtisadi hüquqlarının, qanuni mənafelərinin keşiyində cəsarətlə dayanmışdır. Ötən 5 ildə ittifaq üzrə üzvlərin sayı 2400 nəfər artmışdır. Sıralarımıza daha 18 təşkilat qoşulmuşdur. Bu da əvvəlki beş ilə nisbətən xeyli çoxdur. Son dövrlərdə sahə həmkarlar ittifaqı tərəfindən aparılan təşkilati işlərin nəticəsində "AzerGold" QSC, "Mingəçevir İzalit" ASC, Sumqayıt İnter Tekstildə həmkarlar ittifaqı təşkilatı təsis edilərək RK-nın xidmətinə götürülmüşdür. Sahə həmkarlar ittifaqı sıralarını daha da genişləndirmək istiqamətində iş davam edir.

Biz işəgötürənlərlə görüşlər keçiririk. İşçiləri həmkarlar ittifaqı təşkilatlarının yaradılmasının zəruriliyinə inandırmağa çalışırıq. Onlara həmkarlar ittifaqı təşkilatının məqsədlərini izah edir, faydasını konkret faktlarla çatdırırıq. Təəssüf ki, respublikada Hİ təşkilatlarının yaradılmasına maneçilik törədən, Hİ üzvü olmaq istəyənlərə təzyiq göstərən işəgötürənlər də var. Belələrinə qarşı qanunvericiliyin tələbləri səviyyəsində mübarizəmizi gücləndirməliyik. Şirkətimizdə həmkarlar ittifaqı komitəsinin uğurlarını hər bir işçi və sahibkar görür və hiss edir.

Biz həmkarlar ittifaqı olaraq işçilərin sosial məsələlərinin həllində iştirak edir, istirahət və müalicə yerlərinə yollayışlar, ehtiyacı olan aztəminatlı ailələrə yardımlar veririk.

Hesab edirəm ki, bütün özəl müəssisə və şirkətlərdə həmkarlar ittifaqı təşkilatı fəaliyyət göstərərsə, bunun nəticəsini işəgötürənlər də görər.

**Hörmətli qurultay nümayəndələri!**

AHİK sədri, millət vəkili Səttar Möhbalıyev təkcə Azərbaycanda deyil, regionda və dünyada proqressiv siyasi xadim və həmkarlar hərəkatı lideri kimi tanınır. AHİK sədrinin dünyanın iki yüzə qədər ölkəsinin həmkarlar ittifaqı mərkəzlərinin birləşdiyi Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının, Pan Avropa Regional Şurasının vitse-prezidenti seçilməsi onun tükənməz enerjiyə, yüksək təşkilatçılıq bacarığına malik lider və mükəmməl peşəkar olduğunun bariz sübutudur.

Ona görə də Səttar Möhbalıyevin yenidən AHİK sədri vəzifəsinə namizədliyinin irəli sürülməsini təklif edirəm.

**Hörmətli qurultay iştirakçıları!**

Respublikamızın iqtisadi və sosial tərəqqi yolunda inamla irəliləməsində, milli demokratiyanın daha da möhkəmlənməsində, ölkəmizin dünya birliyində nüfuzunun durmadan artmasında qazandığı uğurlara görə hörmətli Prezidentimiz İlham Əliyevə borcluyuq. Xalq, o cümlədən xalqın çoxminli tərkib hissəsi olan həmkarlar ittifaqı üzvləri İlham Əliyevi növbəti 7 ildə də ölkəmizin başçısı görmək istəyir. Biz hər birimiz prezident seçkilərində onun vəkili olmağı özümüzə şərəf bilirik.

**Diqqətinizə görə minnətdarlığımı bildirirəm.**

**Hörmətli qurultay nümayəndələri və əziz qonaqlar!**

AHİK-in IV qurultayından ötən dövr ölkənin iqtisadi, ictimai, siyasi həyatında uğurlu nəticələrlə əlamətdar olmuşdur.

Ölkə rəhbərinin təşəbbüsü ilə aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi, institusional islahatların aparılması, pambıqçılığın, tütünçülüyün, ipəkçiliyin, baramaçılığın və digər sahələrin inkişafına dövlət dəstəyinin güclənməsi, kooperativlərin yaradılmasının sürətləndirilməsi kənd yerlərində minlərlə əlavə yeni iş yerinin açılmasına, işçi qüvvəsinin böyük şəhərlərə miqrasiyasının qarşısının alınmasına təkan vermişdir.

Dövlətimizin aqrar siyasətinin reallaşmasında AHİK və onun üzv təşkilatları da fəal iştirak etmişlər. Bu fəallıq sahə işçilərinin marağını özünə cəlb etmiş, könüllü şəkildə sıralarımıza qoşulanların sayı ildən-ilə artmışdır. Statistik məlumat dediklərimin ən dürüst şahididir. Ötən 5 ildə 91 yeni təsərrüfat subyektində, orta və kiçik sahibkarlıq müəssisəsində yeni həmkarlar ittifaqı təşkilatları yaradılmışdır ki, burada çalışanların sayı 3400 nəfərdən yuxarıdır.

**Hörmətli nümayəndələr!**

Mən bu kürsüyə nailiyyətlərimizi sadalamaq məqsədilə çıxmamışam. Məqsədim növbəti hesabat ilində görəcəyimiz işlər, üzləşdiyimiz problemlərin həlli yolları barədə fikirlərimi sizinlə bölüşməkdir. Hamımıza məlumdur ki, əsas missiyamız işçilərin əmək hüquqlarının qorunması, istehsalatda müasir iş şəraitinin yaradılması, əməyin mühafizəsi və üzvlərimizin istirahətinin təşkilidir. Biz təşkilatımız olan müəssisələrdə, idarələrdə, təsərrüfatlarda bu missiyamızın öhdəsindən gəlirik. Amma elə müəssisələr var ki, necə deyərlər, de-fakto fəaliyyət göstərsə də, de-yure yoxdur. Söhbət qeyri-formal iqtisadiyyatdan gedir. Bu sahə minlərlə işçini və onların ailə üzvlərini dövlətin hətta minimum sosial təminatlarından kənarda qoyur. Eyni zamanda dövlət büdcəsinə vergilərdən yayınır.

Azərbaycan həmkarlar ittifaqları gələcəkdə qeyri-formal məşğulluğun aradan qaldırılmasını diqqət mərkəzində saxlamalıdır. Ölkə başçısının sərəncamı ilə yaradılmış "Əmək münasibətlərinin tənzimlənməsi və koordinasiyası", "Sosial-iqtisadi məsələlər üzrə Milli Üçtərəfli Komissiya"nın imkanlarından maksimum istifadə etməklə qeyri-formal məşğulluqdan formal məşğulluğa keçilməsi üçün müvafiq addımlar atılmalıdır.

Hesab edirəm ki, bu komissiyalar birlikdə və ya ayrı-ayrılıqda qeyri-formal iqtisadiyyatın formal iqtisadiyyata keçidi ilə bağlı xüsusi tədbirlər planı hazırlamalıdır. Tədbirlər planında hər bir dövlət strukturu qarşısında konkret vəzifələr müəyyənləşdirilməli və vaxtaşırı olaraq bu vəzifələrin icrası ilə bağlı hesabatı dinlənilməlidir. Biz isə, həmkarlar ittifaqı olaraq, ictimai nəzarətin həyata keçirilməsində bütün imkanlarımızdan istifadə etməyə çalışmalıyıq. Eyni zamanda beynəlxalq təşkilatlarla, mövcud əməkdaşlıq çərçivəsində, bu məsələyə aid tədbirlərin keçirilməsi işi davam etdirilməlidir.



**Mələk ƏHMƏDZADƏ,**
*"Kənd-Qida-İş" Hİ Qax RAYON Komitəsinin sədri, AHİK-in Məclis üzvü*

Bu il Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının yaradılmasının 25 ili tamam olur. Sahə həmkarlar ittifaqları ötən müddət ərzində Konfederasiyanın rəhbərliyi altında böyük təkamül yolu keçmiş, ölkədə gedən sosial-iqtisadi, demokratik islahatlar şəraitində cəmiyyətdə layiqli yerini tutmağa müvəffəq olmuşdur. Qeyd etməliyəm ki, AHİK sədri, millət vəkili Səttar Möhbalıyevin dəstəyini daim hiss edirik.

Kənd Təsərrüfatı və Qida Sənayesi İşçiləri Həmkarlar İttifaqının VI qurultayında, beynəlxalq və respublika həmkarlar ittifaqları hərəkatındakı xidmətlərini və sahə həmkarlar ittifaqının üzv təşkilatlarından daxil olmuş təklifləri nəzərə alaraq, Səttar Möhbalıyevin yenidən Konfederasiyanın sədri vəzifəsinə irəli sürülməsi barədə qərar qəbul edilmişdir. Həmin qərarı səsləndirməklə Səttar Möhbalıyevin Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri vəzifəsinə yenidən namizədliyini təklif edirəm.

Təklif edirəm ki, ötən dövr ərzində AHİK-in fəaliyyəti barədə hesabata kafi qiymət verilsin və Təftiş Komissiyasının hesabatı təsdiq edilsin.

**Hörmətli nümayəndələr!**

Bugünkü beynəlxalq mənzərəyə baxanda müharibələr, münaqişələr, qanlı toqquşmalar, böhranlar görürük. Azərbaycan isə uğurla inkişaf edir, sabitlik möhkəmlənir. Bu sabitliyin mənbəyi isə xalqla iqtidar arasındakı həmrəylik və birlik, möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin cəmiyyət tərəfindən bəyənilməsi və dəstəklənməsidir.

Ölkədə əldə olunan dinamik sosial-iqtisadi inkişafın davam etdirilməsi, Azərbaycan dövlətçiliyinin qüdrətlənməsi və gələcəyi naminə bütün həmkarlar ittifaqları adından qarşıdan gələn prezident seçkilərində cənab İlham Əliyevin namizədliyinin irəli sürülməsini təklif edirəm.

**Diqqətinizə görə təşəkkür edirəm!**

# AHİK-in V QURULTAYINDA ÇIXIŞLAR



**Rafiq İLDAROV,**
*Elektroenergetika və Elektrotexnika Sənayesi İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri*

***Hörmətli Səttar müəllim!***
***Hörmətli qonaqlar!***
***Hörmətli qurultay nümayəndələri!***

Hesabat dövründə sahəmizin həmkarlar ittifaqı təşkilatları öz fəaliyyətini Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının IV qurultayında qəbul olunmuş "Əsas istiqamətləri"n icrası üzərində qurmuşdur. İşçilərin hüquqlarının müdafiəsində fəallıq göstərmiş, demokratik dəyərlərin inkişaf etdirilməsinə, sosial ədalət prinsiplərinin pozulmamasına, işəgötürənlərlə işçilər arasında münasibətlərin tənzimlənməsinə çalışmışıq.

Biz sahə tarif sazişlərinə və kollektiv müqavilələrə yaradıcı yanaşmışıq. Kollektiv müqavilələrə Əmək Məcəlləsində nəzərdə tutulduğundan artıq güzəştlərin daxil edilməsinə nail olmuşuq. Bu nailiyyəti biz təkidlə, təsir rıçaqlarından istifadə etməklə yox, daha çox izahedici işlər aparmaqla qazanmışıq. Danışıqlar zamanı işəgötürənləri inandırmışıq ki, kollektiv saziş və müqavilələrdə nəzərdə tutulmuş güzəştli müddəalar və öhdəliklər tək işçilərə deyil, işəgötürənə, iqtisadiyyatımıza, nəticə etibarilə dövlətimizə lazımdır.

Sahə həmkarlar ittifaqında işçilərin əməyinin təhlükəsizliyinə və mühafizəsinə xüsusi diqqət yetirilir. Demək olar ki, bütün işçilər xüsusi geyimlə, fərdi mühafizə vasitələri ilə, zərərli şəraitdə işləyənlər isə südlə və digər qida məhsulları ilə təmin olunurlar. Müəssisə və təşkilatlar arasında hər il əməyin mühafizəsi üzrə baxış-müsabiqə keçirilir. Qalib müəssisələri "Azərenerji" ASC, Respublika Komitəsi pulla, qiymətli hədiyyələrlə stimullaşdırır.

AHİK-in "Sağlam və təhlükəsiz əmək şəraitinin yaradılması üzrə ilin ən yaxşı müəssisəsi (təşkilatı)" devizi altında keçirdiyi ənənəvi Respublika baxış-müsabiqələrdə sahə həmkarlar ittifaqının xidmətində olan müəssisələr fəal iştirak etmiş və 7 müəssisə birincilər sırasında olmuşdur.

İstehsalatda bədbəxt hadisə səbəbindən əmək qabiliyyətini itirmiş işçilər təşəbbüsümüzlə sığorta edilirlər. Hazırda işəgötürənlər tərəfindən bütün işçilərin tam həcmli tibbi sığorta ilə təmin edilməsi sahəsində iş aparırıq.

Sahə (tarif) və kollektiv sazişdə gənclər üçün də bir sıra güzəştlər nəzərdə tutulmuşdur. Belə ki, ordu sıralarından müəssisəyə qayıdan gəncə bir aylıq vəzifə (tarif) maaşı həcmində birdəfəlik müavinət verilir.

Ali təhsil müəssisələrində elektroenergetika ixtisası üzrə təhsil alan, əla və yaxşı qiymətlərlə oxuyan tələbələrə dördüncü kursdan başlayaraq əmək təcrübəsinin keçirilməsi üçün şərait yaradılır və onlara ASC tərəfindən əlavə ödəniş təyin edilir. Belə tələbələrin gələcəkdə işlə təmin edilməsi də nəzərdə tutulur. Biz bu gənclərin gələcəkdə həmkarlar ittifaqı üzvü olmaları üçün indidən onlarla təbliğati və təşkilati işlər aparırıq.

Həmkarlar ittifaqı komitə sədrləri və fəallarının təhsilinə xüsusi diqqət yetirilir, onların Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasında keçirilən kurslarda iştirakı təmin edilir. Son illər informasiya işi həmkarlar ittifaqlarının fəaliyyətinin tərkib hissəsinə çevrilmişdir. İlk təşkilatlarla qarşılıqlı sənəd və məlumat mübadiləsi əsasən Respublika Komitəsinin WEB saytı və elektron poçtu vasitəsilə həyata keçirilir.

Mən fürsətdən istifadə edib ittifaqımızın üzvlərini narahat edən bəzi məsələlərə toxunmaq istərdim. Bəzi müəssisələrdə işəgötürənin təzyiqi altında işçilər, məcburiyyət qarşısında qalaraq, hətta daimi iş yerində müddətli əmək müqaviləsini imzalayırlar. Müddət də işəgötürənin istədiyi kimi müəyyənləşdirilir. Hətta uzun müddət işləyən işçi ilə, müəyyən səbəb taparaq, yenidən müddətli müqavilə imzalanır. Bu anormal vəziyyətə son qoymaq üçün yaxşı olardı ki, fərdi əmək müqaviləsi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən qeydiyyata alınarkən daimi iş yerində müddətli müqavilənin səbəbləri aydınlaşdırılsın.

Əmək Məcəlləsinin 73-cü maddəsinin 1-ci bəndində yazılır ki, müddətli əmək müqaviləsində göstərilən müddət qurtardıqda əmək münasibətləri davam etdirilərsə, həmin əmək müqaviləsi əvvəllər müəyyən olunmuş müddətə uzadılmış hesab olunur. Mümkündürsə, həmin bənddə "əmək müqaviləsi əvvəllər müəyyən olunmuş müddətə uzadılır" sözləri "müddətsiz bağlanmış" sözləri ilə əvəz edilsin.

Əfsuslar olsun ki, bu gün ölkə üzrə minimum əməkhaqqı müəyyən edilmiş yaşayış minimumundan aşağıdır.

Minimum əməkhaqqının (I dərəcəli işçinin tarif (vəzifə) maaşının), icbari ödənişlərdən sonrakı məbləğinin, heç olmasa ölkədə əmək qabiliyyətli əhali üçün nəzərdə tutulmuş yaşayış minimumuna çatdırılmasını təklif edirik.

**Hörmətli qurultay nümayəndələri!**

Mən sahə həmkarlar ittifaqının tapşırığına əsasən, təklif edirəm ki, AHİK sədri vəzifəsinə hörmətli Səttar Möhbalıyevin namizədliyi irəli sürülsün və dəstəklənsin.

İttifaqımızın daha bir tapşırığını diqqətinizə çatdırıram: aprelin 11-də keçiriləcək prezident seçkilərində cənab İlham Əliyevin namizədliyi irəli sürülsün. Onun namizədliyi çoxminli həmkarlar ittifaqı təşkilatı tərəfindən yekdilliklə müdafiə olunsun.

**Diqqətinizə görə minnətdaram!**



**Seymur ORUCOV,**
*Rabitə İşçiləri MHİRK-in sədri*

**Hörmətli cənab sədr, hörmətli qurultay iştirakçıları!**
**Xanımlar və cənablar!**
**Hörmətli nümayəndələr!**

Bugünkü qurultayda bir çox mühüm aktual məsələlər barədə geniş məlumatlar verildi. Biz başa düşürük ki, yeni şəraitdə köhnə metodlarla işləmək mümkün deyildir. Həmkarlar ittifaqlarının işçilərin maraq və hüquqlarının müdafiəçisi statusunun yüksəldilməsinə yönəlmiş yeni metod və üsullar vacibdir. İqtisadiyyatın qloballaşması, böyük sənaye müəssisələrinin strukturunun dəyişdirilməsi, idarəetmədə yeni islahatlar aşağı vəsilələrdə mövcud təşkilati struktura yenidən baxılmasına səbəb olmuşdur. Müasir Azərbaycanda sosial-əmək münasibətlərinin formalaşması ilə əlaqədar onların tənzimlənməsində innovasiya metodlarından istifadə olunması zərurəti yaranmışdır. Həmkarlar ittifaqına zamanın tələblərinə cavab verən yeni əhvali-ruhiyyə gətirmək vacibdir. Nəqliyyat, rabitə və yüksək texnologiyalar sahəsi işçilərinin əmək hüquqlarının, maraqlarının müdafiəsi, əməyin mühafizəsi, onların istirahəti, sağlamlığı, sosial ehtiyaclarının təmin edilməsi üçün lazımi şərait yaratmaq bizim əsas prioritet vəzifələrimizdəndir.

İttifaq üzvlərinin əmək hüquqlarının qorunması və sosial müdafiəsi istiqamətində apardığımız işlər nəticəsində Respublika Komitəsinə daxil olmuş maddi yardım, güzəşt və kompensasiyalarla bağlı ərizə və şikayətlər işəgötürənlərlə RK arasında olan qarşılıqlı etimad əsasında müsbət həll edilmişdir. Əməyin və işçilərin sağlamlığının mühafizəsi üzrə problemlərin həllinə maddi-texniki və maliyyə təminatı tədbirlərinin görülməsi sayəsində nail olunmuşdur.

İttifaq üzvlərinin istirahəti və sağlamlığı daim diqqət mərkəzində olmuşdur. Son 5 il ərzində RK AHİK-dən 1370005 manatlıq 1470 (1983 nəfər üçün) ədəd yollayış almışdır. Onlardan 46233 manatlıq 72 yollayış rabitəçilərə pulsuz verilmişdir. Bundan başqa, 2088 rabitəçi ailəsi ilə birlikdə "Nabran" İstirahət Bazasında pulsuz istirahət etmişdir. Respublika Komitəsinin balansında olan "Nabran" İstirahət Bazasına verilən yollayışların dəyərinin 50%-i RK, 50%-i isə nazirliyin tabeli strukturları tərəfindən ödənilir.

İşğal olunmuş rayonlardan məcburi köçkün düşmüş rabitəçilərin ailələrinin, Qarabağ müharibəsi əlillərinin və şəhid ailələrinin, 20 Yanvar rabitəçi şəhid ailələrinin, Çernobıl iştirakçılarının, rabitəçi ahılların problemləri vaxtında həll edilir. Onlara və vəziyyəti ağır olan digər rabitəçilərə təkcə 2017-ci ildə Respublika Komitəsinin və tabe strukturlarının maliyyə vəsaiti hesabına 85900 manat məbləğində maddi yardım verilmişdir.

Hər il Goradildə məskunlaşmış məcburi köçkün rabitəçilərlə Yeni il, Qurban, Novruz və Ramazan bayramları ərəfəsində görüşmüşük. 20 Yanvar rabitəçi şəhid ailələri, Xocalı, Kəlbəcər, Şuşa, Laçın, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan rayonlarının işğalının ildönümləri ilə bağlı rabitə qovşaqlarının məcburi köçkün rabitəçiləri ilə anım mərasimləri keçirilmiş, sosial vəziyyəti ağır olan yüzlərlə rabitəçi ailəsinə pul və ərzaq yardımı göstərilmişdir.

**Hörmətli qurultay nümayəndələri!**

Həmkarlar ittifaqlarının fəaliyyətində gənclərlə iş özünəməxsus yer tutur. Gənclərin ictimai həyata, həmkarlar ittifaqının fəaliyyətinə cəlb edilməsi, sağlam, vətənə layiqli vətəndaş kimi formalaşması mühüm əhəmiyyət daşıyır. Bu məqsədlə təklif edərdim ki, həmkarlar ittifaqlarının seçkili orqanlarına gənclər daha çox cəlb olunsun, gənc işçilərin sosial müdafiəsi gücləndirilsin. Gənc həmkarlar ittifaqı liderlərinin stimullaşdırılmasına və şəxsi keyfiyyətlərinin formalaşdırılmasına diqqət artırılsın.

Qurultayda məndən öncə çıxış edənlərin də söylədiyi kimi, bu gün həmkarlar ittifaqı cəmiyyətimizdə böyük nüfuz sahibinə çevrilmişdir. Təşkilatımızın səmərəli fəaliyyət göstərməsini təmin edə biləcək qanunvericilik bazası var. Bütün bunlar AHİK sədri, millət vəkili hörmətli Səttar müəllimin xidmətləri sayəsində mümkün olmuşdur.

Məhz onun icra və qanunverici orqanlar ilə apardığı mütəmadi işlərin, verdiyi təkliflərin nəticəsində "Həmkarlar ittifaqları haqqında" qanuna, Əmək Məcəlləsinə, İnzibati Xətalar Məcəlləsinə həmkarlar ittifaqlarının maraqlarını özündə əks etdirən dəyişikliklər və əlavələr edilmişdir.

**Hörmətli qurultay nümayəndələri!**

Xidmətimizdə olan həmkarlar ittifaqı təşkilatlarında keçirilən hesabat-seçki yığıncaqlarında həmkarlar ittifaqı üzvləri tərəfindən AHİK-in V qurultayında Səttar Möhbalıyevin yenidən sədr seçilməsi barədə təkliflər verilmiş və qərarlar qəbul olunmuşdur. Bizim bu qərarlarımızı dəstəkləməyinizi xahiş edirəm. Növbəti illərdə onun rəhbərliyi altında Konfederasiyanın daha böyük uğurlara imza atacağına inanırıq, bu qurultayda hörmətli Səttar müəllimin yenidən sədr seçilməsi barədə namizədliyini irəli sürürük.

2013-2018-ci illər üçün AHİK-in hesabatının qənaətbəxş qiymətləndirilməsini, təftiş komissiyasının hesabatının təsdiq olunmasını təklif edirəm.

**Diqqətinizə görə minnətdaram!**




**Elmira QULİYEVA,**
*Səhiyyə İşçiləri Həmkarlar İttifaqı Sumqayıt Şəhər Şurasının sədri*

**Hörmətli sədr!**
**Hörmətli qurultay iştirakçıları!**
**Əziz qonaqlar!**

Mənim üçün demək xoşdur ki, bu gün, digər təşkilatlar kimi, səhiyyə işçiləri həmkarlar ittifaqının səmərəli fəaliyyət göstərə bilməsi üçün hər cür şərait yaradılmışdır. İttifaqımız bu şəraitdən səmərəli şəkildə bəhrələnərək üzvlərinin əmək, sosial, istirahət hüquqlarının qorunması istiqamətində böyük işlər həyata keçirir.

Belə mühüm işlərdən biri də AHİK-in və Səhiyyə Nazirliyinin dəstəyi ilə Qusar şəhərində "Şəfa-Qusar" İstirahət Mərkəzinin yaradılması olmuşdur. Respublika Komitəsinin mülkiyyətində olan Mərkəz 2016-cı ilin may ayından tam gücü ilə fəaliyyətə başlamışdır. Bu günədək istirahət mərkəzində 7000-dən çox səhiyyə işçisi və onların ailə üzvləri istirahət etmişdir.

İstirahət mərkəzində 40 nəfərdən çox yerli vətəndaş daimi işlə təmin olunmuşdur. Bu da regionlarda iş yerlərinin açılmasına dair dövlət proqramının yerinə yetirilməsinə dəstəkdir.

**Hörmətli qurultay iştirakçıları!**

Bu gün Azrəbaycan Həmkarlar İttifaqları Konfederasiyası, ölkəmizin ictimai-siyasi və sosial-iqtisadi həyatında mühüm yeri olan, çoxillik uğurlu fəaliyyəti ilə əmək adamlarının kütləvi və müstəqil təşkilatına çevrilmişdir.

Məhz Konfederasiyanın təşəbbüsü, müəllifliyi ilə hökumətlə, sahibkarlar təşkilatı ilə iki il müddətinə Baş Kollektiv Saziş bağlanır, onun icrası nəzarətdə saxlanılır.

Baş Kollektiv Saziş həmkarlar ittifaqı təşkilatlarında, o cümlədən ilk həmkarlar ittifaqı komitələrində kollektiv danışıqların intensivliyinin artırılmasına hiss olunacaq dərəcədə təkan verir.

Son illərdə Əmək Məcəlləsinə edilmiş əlavə və dəyişikliklər, Sosial və İqtisadi Məsələlər üzrə Üçtərəfli Komissiyanın yaradılması cəmiyyətdə həmkarlar ittifaqının rolunu və statusunu daha da artırmışdır.

Yeri gəlmişkən deyim ki, komissiyanın müzakirəsinə hər bir ittifaq üzvünün mənafeyinin qorunmasını əhatə edən məsələlərin çıxarılması məqsədəuyğun olardı.

AHİK-in "2016-2020-ci illər üçün Layiqli Əmək üzrə Ölkə Proqramı"nın, "Azərbaycan gəncliyi: 2017-2021-ci illərdə" Dövlət Proqramının, "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekusorlarının qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə 2013-2018- ci illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsinə dair AHİK-in konsepsiyaları təqdirəlayiqdir və sahə həmkarlar təşkilatı kimi icra edilməsində fəal iştirak edirik.

Hər il AHİK-in İcraiyyə Komitəsinin qərarı ilə keçirilən "Sağlam və təhlükəsiz əmək şəraitinin yaradılması üzrə ilin ən yaxşı müəssisəsi (təşkilatı)" Respublika baxış-müsabiqəsində 10 səhiyyə müəssisəsi, "İlin peşəkar gənci" müsabiqəsində səhiyyə sahəsində çalışan 4 gənc qalib olmuş, AHİK-in mükafatları ilə təltif edilmişlər.

**Hörmətli qurultay iştirakçıları!**

Daha bir neçə təklifimi diqqətinizə çatdırmaq istəyirəm - yaxşı olardı ki, səhiyyə işçilərinə "dövlət qulluqçusu" statusu verilsin. Sosial mənzil alanların siyahısına səhiyyə işçiləri də əlavə edilsin, əmək, səhiyyə müəssisələrində çalışanların pensiya yaş həddinə yenidən baxılsın. Attestasiyadan keçə bilməyən tibb işçilərinə təkrar attestasiyaya qədər orta əməkhaqqının verilməsi ilə bağlı məsələnin həlli üçün müvafiq strukturlara müraciət edilsin.

Özəl sektordan həmkarlar ittifaqına üzvlüyə marağı gücləndirmək məqsədilə intensiv iş aparılması, həmkarlar ittifaqı fəallarının təhsil sistemi şəbəkəsini artırmaq və yaxşılaşdırmaq üçün əlavə tədbirlər qəbul olunmalıdır, informasiya fəaliyyətini yaxşılaşdırmaqdan və üzv təşkilatların işini gücləndirməkdən ötrü elektron poçt ünvanları üçün AHİK tərəfindən vahid Domenin alınması da məqsədəuyğundur.

**Hörmətli qurultay iştirakçıları!**

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının, 5 il ərzində görülən işlər barədə hesabat məruzəsini dinlədikdən sonra, ittifaq üzvlərinin əmək, sosial-iqtisadi müdafiəsi, istirahətinin təşkili və digər istiqamətlərdə mühüm işlərin həyata keçirildiyini və ölkənin ictimai həyatında aparıcı qüvvəyə çevrildiyini görürük.

Qeyd olunanları nəzərə alaraq, AHİK-in hesabat dövründəki fəaliyyətini qənaətbəxş qiymətləndirir və təftiş komissiyasının məlumatının təsdiq olunmasını təklif edirəm.

Səhiyyə işçiləri həmkarlar iittifaqı təşkilatlarının hesabat-seçki yığıncaqlarının, konfranslarının və III qurultayının qərarlarına əsasən, səhiyyə işçiləri adından Səttar Suliddin oğlu Möhbalıyevin AHİK-in sədri vəzifəsinə və ölkəmizin xoşbəxt gələcəyi naminə İlham Heydər oğlu Əliyevin Azərbaycan Respublikası Prezidentliyinə namizədliyinin irəli sürülməsini təklif edirəm.

**Diqqətinizə görə minnətdaram!**

PROBLEM

## Qaydalara məsuliyyətlə yanaşmalıyıq

Fiziki imkanları məhdud və xüsusi qayğıya ehtiyacı olan insanların, yaşlıların və uşaq arabası ilə olan şəxslərin rahat hərəkəti üçün Bakı şəhərinin küçə və prospektlərinin səkilərində pandusların quraşdırılması vacib idi. Və qeyd edək ki, yol infrastrukturunun əlilliyi olan şəxslər üçün əlçatanlığının təmin edilməsi ilə bağlı məsələlər Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 2 iyun tarixli 2947 nömrəli Sərəncamı ilə təsdiq edilmiş Tədbirlər Planında nəzərdə tutulmuşdu. Sevindirici haldır ki, Bakı Nəqliyyat Agentliyinin mühüm sosial əhəmiyyət kəsb edən layihəsi çərçivəsində 9 dekabr 2017-ci il tarixindən paytaxt ərazisindəki yol kəsişmələrində və səkilərdə pandusların tikinti-quraşdırma işlərinə başlanılıb. Bunu Bakı Nəqliyyat Agentliyinin (BNA) İctimaiyyətlə Əlaqələr Şöbəsinin sektor müdiri Mais Ağayev bildirdi: "Pandusların mailliyi səkilərə uyğun olaraq 8-10% arasında dəyişir və sürüşməyə davamlı səthdən ibarətdir. Artıq 200-ə yaxın pandus üzərində inşaat işləri yekunlaşdırılıb. Ümumilikdə isə ilkin mərhələdə Bakı şəhərinin 5 rayonunda 415 pandusun tikintisi 1 iyul 2018-ci il tarixinədək yekunlaşacaq. BNA yol infrastrukturunu əlilliyi olan şəxslərin rahat hərəkəti üçün əlverişli etmək məqsədilə başladığı layihə çərçivəsində geniş maarifləndirmə işlərinə də start verib. Məqsəd hərəkət iştirakçılarına mühüm sosial əhəmiyyət kəsb edən layihə barədə ətraflı məlumat vermək, eyni zamanda panduslardan düzgün istifadə edilməsi ilə bağlı maarifləndirmə işini təşkil etməkdir".




Lakin bütün bu tədbirlərin yanında narahatlıq doğuran və vətəndaşların şikayətlərinə səbəb olan bir məsələ yaranıb. Belə ki, səkilərdən istifadə etmək məcburiyyətində olan insanları düşünmədən, piyada keçidlərində, pandusların qarşısında və ya pandusun üzərindən keçməklə səkidə avtomobillərini saxlayan sürücülərə rast gəlinir. "Bu sürücülərə qarşı hansısa tədbir görmək mümkündürmü?" sualı ilə Mais Ağayevə müraciət etdik.

Mais müəllim də belə halların baş verdiyini təsdiqlədi. Lakin etiraf etdi ki, təmsilçisi olduğu qurumun həmin hallara qarşı təsir mexanizmi yoxdur. Yaxşı olardı ki, şəhərimizin sakinlərinin özləri bu qəbil sürücüləri ictimai qınaqla tutduqları qeyri-qanuni parklamalardan çəkindirsin.

Nəqliyyat məsələləri üzrə ekspert Ərşad Hüseynov isə bildirdi ki, bu cür neqativ halların qarşısını Dövlət Yol Polisi güzəştsiz şəkildə almalıdır. Çünki o yer səki olduğu üçün orada avtomobillərin hərəkəti qadağandır. Bu zaman mütləq sürücü cərimə olunmalıdır. Qanunvericiliyə görə, əgər sürücü yaxınlıqda deyilsə, bu zaman ona həm cərimə yazılmalı, həm də avtomobili evakuasiya olunmalıdır.

**Əsli ƏHMƏDOVA**

# Azərbaycan Respublikasının Nazirlər Kabineti, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatlarının Milli Konfederasiyası arasında 2018-2019-cu illər üçün

# BAŞ KOLLEKTİV SAZİŞ

**Azərbaycan Respublikasının Nazirlər Kabineti, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatlarının Milli Konfederasiyası (bundan sonra - Tərəflər) Azərbaycan Respublikasının bağladığı və ya tərəfdar çıxdığı beynəlxalq müqavilələrə, Beynəlxalq Əmək Təşkilatının konvensiyalarına, digər beynəlxalq hüquq normalarına və Azərbaycan Respublikasının qanunvericiliyinə əsaslanaraq, 2018-2019-cu illər üçün sosial-iqtisadi və əmək münasibətləri üzrə razılaşdırılmış mövqelərini və birgə fəaliyyətini müəyyən edən Baş Kollektiv Saziş (bundan sonra - Saziş) bağlayırlar.**

Tərəflər hesab edirlər ki, Azərbaycan Respublikasında uğurla həyata keçirilən islahatlar nəticəsində sosialyönlü, dünya təsərrüfat sisteminə inteqrasiya olunan milli iqtisadiyyatın formalaşdırılması, makroiqtisadi sabitliyin qorunub saxlanılması, iqtisadiyyatın diversifikasiyası, qeyri-neft sektorunun və regionların inkişafının sürətləndirilməsi, sahibkarlığa dövlət dəstəyinin gücləndirilməsi ölkədə yoxsulluq və işsizlik səviyyəsinin nəzərəçarpacaq dərəcədə azaldılmasına, əhalinin məşğulluğunun təmin olunmasına, yeni iş yerlərinin açılmasına, gəlirlərin artırılmasına və vətəndaşların maddi rifah halının yaxşılaşdırılmasına, sosial cəhətdən həssas əhali qruplarının sosial müdafiəsinin gücləndirilməsinə yönəldilən sosial-iqtisadi siyasətdir və bu hədəflərin reallaşdırılması Sazişin prioritet məqsədlərini təşkil edir.

Saziş sosial tərəfdaşlıq sisteminin tərkib hissəsidir və sahə tarif sazişlərinin işlənilməsi və bağlanılması üçün əsas təşkil edir. Tərəflər qarşılıqlı əlaqələrin sosial tərəfdaşlıq prinsipləri əsasında inkişaf etdirilməsinə, sosial-əmək münasibətlərinin sosial dialoq, kollektiv müqavilələr və sazişlər vasitəsilə tənzimlənməsinə çalışacaqlarını və Baş Kollektiv Sazişlə müəyyən edilən öhdəlik və sövdələşmələrə riayət edəcəklərini bəyan edirlər.

### *1. İqtisadi siyasət sahəsində*

**1.1.** Tərəflər hesab edirlər ki, yaxın gələcəkdə dövlətin sosial-iqtisadi siyasəti iqtisadi inkişafın dayanıqlılığının, istehsalatın modernləşdirilməsinin və rəqabət qabiliyyətinin yüksəldilməsi, innovasiya fəallığının və insan kapitalına investisiyalar qoyulmasının stimullaşdırılması, vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi, yeni layiqli iş yerlərinin yaradılması, yoxsulluğun azaldılması, əhalinin rifahının artırılması əsasında təmin edilməsinə istiqamətləndirilməlidir.

**1.2.** Bu məqsədlə Tərəflər aşağıdakı öhdəlikləri yerinə yetirməyi öz üzərlərinə götürürlər:

**1.2.1.** iqtisadiyyatın, o cümlədən xidmət sahələrinin modernləşdirilməsinə kömək etmək;

**1.2.2.** iqtisadiyyatın innovativ inkişaf modelinə keçidini sürətləndirmək;

**1.2.3.** iqtisadiyyatın yüksək texnoloji və infrastruktur sahələrinin inkişaf etdirilməsinə diqqəti artırmaq;

**1.2.4.** iqtisadiyyatın prioritet sahələrinin dəstəklənməsi üzrə kompleks tədbirləri həyata keçirmək;

**1.2.5.** sosial-iqtisadi inkişafın uzunmüddətli proqnozlaşdırma sistemini təkmilləşdirmək, onun keyfiyyətini artırmaq;

**1.2.6.** bazar iqtisadiyyatı şəraitində istehsal həcminin artırılmasında və yeni iş yerlərinin yaradılmasında əsas amil olan kiçik və orta sahibkarlıq subyektləri üçün dövlətin maliyyə dəstəyini davam etdirmək, bu dəstəyi daha səmərəli təşkil etmək məqsədilə dövlət-sahibkar münasibətlərinin digər institusional mexanizmlərini daha da təkmilləşdirmək;

**1.2.7.** yerli məhsulun istehsal həcmini, əməyin səmərəliliyini, malların keyfiyyətini və rəqabət qabiliyyətini yüksəltmək məqsədilə yerli istehsalçılara hərtərəfli yardımı artırmaq, qanunvericilik və beynəlxalq hüquq normaları əsasında daxili və xarici bazarlarda ölkənin yerli istehsalçılarının mənafelərini müdafiə etmək, istehsal olunmuş hazır məhsulun dünya bazarlarına ixracını stimullaşdıran tədbirlər sistemini gücləndirmək;

**1.2.8.** iqtisadiyyatın bütün sahələrində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi üzrə tədbirləri davam etdirmək;

**1.2.9.** qeyri-formal iqtisadiyyatın leqallaşdırılması istiqamətində tədbirləri həyata keçirmək;

**1.2.10.** korrupsiya əleyhinə fəaliyyəti gücləndirmək;

**1.2.11.** əhalinin, o cümlədən gənclərin və qadınların sahibkarlıq fəaliyyəti ilə məşğul olmaları üçün səyləri artırmaq;

**1.2.12.** yerli inhisarçıların xidmətlərinə və məhsullarına qoyulan qiymətlərə (tariflərə) yenidən baxılması prosesində üçtərəfli məsləhətləşmələrdən istifadə etmək;

**1.2.13.** geni dəyişdirilmiş məhsulların ölkəyə gətirilməsinin qarşısını almaq, ərzaq və qeyri-ərzaq mallarının keyfiyyəti üzərində dövlət nəzarətini gücləndirmək;

**1.2.14.** Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondu vəsaitləri hesabına ipoteka kreditlərinin verilməsi şərtlərinin sadələşdirilməsi ilə bağlı tədbiri davam etdirmək;

**1.2.15.** institusional, idarəetmə və struktur islahatlarını davam etdirmək;

**1.2.16.** inflyasiyanın birrəqəmli səviyyədə saxlanılması məqsədilə müvafiq tənzimləmə üsullarından fəal istifadə etmək;

**1.2.17.** ölkənin qeyri-neft sektoruna xarici investisiyaların miqyasını daha da genişləndirmək məqsədilə xarici investorlar üçün stimullaşdırıcı mexanizmlər üzrə təkliflər hazırlamaq;

**1.2.18.** Azərbaycan Respublikasının Rəqabət Məcəlləsinin qəbul olunmasının sürətləndirilməsi üçün müvafiq tədbirlər görmək;

**1.2.19.** idxalı əvəz edəcək və ixracyönlü məhsulların istehsalını və ixracını stimullaşdıran tədbirləri həyata keçirmək;

**1.2.20.** ölkə iqtisadiyyatının qeyri-neft sektorunun, o cümlədən turizmin inkişafını davam etdirmək;

**1.2.21.** istehlakçıların hüquqlarının müdafiəsinin milli sisteminin inkişafını təmin etmək məqsədilə "Qida təhlükəsizliyi haqqında" qanun layihəsini hazırlamaq;

**1.2.22.** MDB ölkələrində valyutaların alıcılıq qabiliyyətinin pariteti əsasında beynəlxalq müqayisələrin aparılmasını nəzərdən keçirmək;

**1.2.23.** bölgələrdə kənd təsərrüfatı məhsullarının istehsalı ilə emal prosesləri, aqrotexniki və logistika, sanitar və fitosanitar, marketinq və digər xidmətləri vahid məkanda birləşdirən aqroparkların yaradılmasını davam etdirmək;

**1.2.24.** subsidiyaların verilməsi prosesinin təkmilləşdirilməsi, sığortaolunma mexanizminin yaxşılaşdırılması istiqamətində görülən işləri davam etdirmək;

**1.2.25.** kənd təsərrüfatı məhsulları istehsalçılarının topdan və pərakəndə satış bazarlarına çıxış imkanlarını genişləndirmək;

**1.2.26.** fermerlərə informasiya-məsləhət xidmətinin səmərəli təşkili sahəsində görülən işlərini davam etdirmək;

**1.2.27.** kənd təsərrüfatında rəqabətqabiliyyətli irimiqyaslı kooperasiyaların yaradılmasına dövlət dəstəyini gücləndirmək;

**1.2.28.** infrastruktur layihələri çərçivəsində kənd yollarının təmiri və yenidən qurulması işlərini davam etdirmək;

**1.2.29.** istifadə olunmayan kənd təsərrüfatı təyinatlı torpaqların yenidən dövriyyəyə qaytarılması, torpaqlardan yerli şəraitə uyğun səmərəli istifadə etmək üçün müvafiq tədbirlər görmək;

**1.2.30.** özəl "Fermer mağazaları", "yaşıl marketlər" və topdansatış mərkəzlərini genişləndirmək;

**1.2.31.** azad iqtisadi zonaların yaradılması istiqamətində səyləri gücləndirmək;

**1.2.32.** "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ndə müəyyən edilmiş strateji hədəflər üzrə tədbirlərin icrasını, o cümlədən kənd yerlərində əhalinin peşə hazırlığının gücləndirilməsi, məşğulluğunun artırılması, habelə toxumçuluğun, baramaçılığın və arıçılığın inkişaf etdirilməsi sahəsində tədbirləri davam etdirmək.

**1.3.** Tərəflər iqtisadiyyatın bütün sahələrində Ümumi Daxili Məhsulun real artım göstəricilərinin proqnozlaşdırılmasını zəruri hesab edirlər.

### 2. Əməyin ödənilməsi, əhalinin gəlirləri və həyat səviyyəsi

**2.1.** Tərəflər qeyd olunan müddətdə işçinin əmək hüququnu təmin edən kompleks tədbirlərin işlənilməsini və həyata keçirilməsini, real əməkhaqqının artırılmasını, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasını və gəlirlər siyasətinin təkmilləşdirilməsini zəruri hesab edirlər.

**2.2.** Bu məqsədlə Tərəflər əməyin təşkilinin təkmilləşdirilməsi, işçilərin ixtisas dərəcələrinin artırılması, əməyin məhsuldarlığının yüksəldilməsi məqsədilə aşağıdakı öhdəlikləri götürürlər:

**2.2.1.** Beynəlxalq Əmək Təşkilatı ilə əməkdaşlıq çərçivəsində Layiqli Əmək üzrə Ölkə Proqramının icrasını təmin etmək;

**2.2.2.** kişi və qadın işçilər tərəfindən həyata keçirilən eyni işlərin ödənilməsində ayrı-seçkiliyi aradan qaldırmaq məqsədilə tədbirlər görmək;

**2.2.3.** gender bərabərliyinin təmin edilməsi baxımından əmək qanunvericiliyi normalarını təkmilləşdirmək;

**2.2.4.** qeyri-formal əmək münasibətlərinin qarşısını almaq məqsədilə işçiləri əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işə cəlb edən və onlara qeyri-rəsmi ödənişlər verən işəgötürənlər üzərində sosial tərəfdaşların birgə nəzarətini gücləndirmək;

**2.2.5.** müəssisə və təşkilatlarda əməyin normallaşdırılması istiqamətində aparılan işlərə diqqəti artırmaq;

**2.2.6.** istehsal olunan məhsulun maya dəyərində əməyin ödənilməsinin payına dair təhlillər aparmaq;

**2.2.7.** özəl tikinti müəssisələri tərəfindən həyata keçirilən tikililərin layihə smeta sənədlərində real əməkhaqqı xərclərinin müəyyənləşdirilməsi məqsədilə qaydaların qəbul edilməsi;

**2.2.8.** büdcədən maliyyələşdirilən sahələrdə çalışan işçilərin əməyinin ödəniş sisteminin bərabər dəyərli əməyə görə bərabər haqq verilməsi prinsipi əsasında təkmilləşdirilməsi, əməyin ödəniş sistemlərində eyni peşə və vəzifələr üzrə tarif (vəzifə) maaşları arasında əməyin nəticələri ilə bağlı olmayan fərqlənmələrin aradan qaldırılması.

### 3. Əmək bazarının inkişafı və əhalinin məşğulluğunun təminatları

**3.1.** Tərəflər hesab edirlər ki, iqtisadiyyatın modernləşdirilməsi və innovasiyalı inkişafı ixtisaslı işçilərə tələbatı formalaşdırmalı, yüksək məhsuldarlıqla, təhlükəsiz əmək şəraiti və layiqli əməkhaqqı ilə səciyyələnən səmərəli iş yerlərinin yaradılması ilə müşayiət olunmalıdır. Bu proseslər əhalinin məşğulluğu və insan resurslarının inkişafı sahəsində məqsədyönlü dövlət siyasəti ilə və sosial tərəfdaşların qarşılıqlı əməkdaşlığı şəraitində aşağıdakı istiqamətlərdə tədbirlər həyata keçirməklə dəstəklənməlidir:

**3.1.1.** əmək və məşğulluq sahəsində dövlət siyasətinin səmərəliliyinin artırılması, beynəlxalq standartlara və milli prioritetlərə əsaslanaraq qanunvericiliyin təkmilləşdirilməsi;

**3.1.2.** əmək bazarının təhlili məqsədilə mövcud informasiya sisteminin əhatə dairəsinin genişləndirilməsi, informasiya sisteminə əmək bazarının monitorinqi və proqnozlaşdırılması üzrə elementlərin daxil edilməsi;

**3.1.3.** əmək bazarında işçi qüvvəsinin keyfiyyətinin inkişaf edən iqtisadiyyatın tələblərinə uyğunlaşdırılması, müasir tələblərə cavab verən rəqabətədavamlı kadr potensialının formalaşdırılması, peşə təhsili sisteminin təkmilləşdirilməsi, peşə standartlarının, o cümlədən təlim standartlarının hazırlanması;

**3.1.4.** dövlət məşğulluq xidmətlərinin keyfiyyətinin yaxşılaşdırılması;

**3.1.5.** əmək miqrasiyasının səmərəliliyinin artırılması;

**3.1.6.** qeyri-rəsmi məşğulluğun qarşısının alınmasına dair ölkə prezidenti tərəfindən təsdiq edilmiş tədbirlər planının icrasının təmin edilməsi;

**3.1.7.** əmək münasibətlərinin əsassız olaraq mülki-hüquqi müqavilələrlə rəsmiləşdirilməsi hallarının qarşısının alınması məqsədilə qanunvericiliyin təkmilləşdirilməsi;

**3.1.8.** əmək qanunvericiliyinə dövlət və ictimai nəzarətin həyata keçirilməsində profilaktik fəaliyyətin və onlayn nəzarət mexanizmlərinin gücləndirilməsi;

**3.1.9.** əmək ehtiyatlarının səmərəli istifadəsi, əhalinin məşğulluq və sahibkarlıq imkanlarının genişləndirilməsi, inklüziv məşğulluğun stimullaşdırılması, layiqli əməyin dəstəklənməsi, işçi qüvvəsinin rəqabət qabiliyyətinin artırılması istiqamətində tədbirlərin həyata keçirilməsi.

**3.2.** Bununla əlaqədar Tərəflər aşağıdakı öhdəlikləri yerinə yetirməyi öz üzərlərinə götürürlər:

**3.2.1.** Azərbaycan Respublikasında mövcud demoqrafik meyillərə və inkişaf perspektivlərinə, ölkənin iqtisadi prioritetlərinə əsaslanaraq səmərəli məşğulluğun təmin edilməsinə yönəldilmiş institusional islahatları müəyyən etməklə, Azərbaycan Respublikasının Məşğulluq Konsepsiyasının qəbul edilməsinə nail olmaq;

**3.2.2.** gənclərin məşğulluq imkanlarını artırmağa, onların kənd yerlərində çalışmasını həvəsləndirən imtiyazlar sisteminin təkmilləşdirilməsinə, əmək şəraitinin yaxşılaşdırılmasına, həyat səviyyəsinin yüksəldilməsinə, tələbə və şagirdlərin, gənc işçilərin və mütəxəssislərin sosial müdafiəsinin gücləndirilməsinə istiqamətləndirilən tədbirləri həyata keçirmək;

**3.2.3.** ordudan tərxis olunmuş gənclərin əvvəlki iş yerlərinə və vəzifələrinə bərpa olunmasına nəzarəti gücləndirmək, onların peşələrinə uyğun müvafiq işlə təmin olunmasına nail olmaq;

**3.2.4.** sosial tərəfdaşların əmək qanunvericiliyinin tələblərinə riayət olunmasına nəzarətini gücləndirmək;

**3.2.5.** məşğul, işaxtaran və işsiz vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi məqsədilə beynəlxalq təcrübəyə əsaslanan işsizlikdən sığorta sistemini formalaşdırmaq və tədbiqini həyata keçirmək;

**3.2.6.** əmək bazarının tələblərinə uyğun olaraq kadr hazırlığının proqnozlaşdırılması sisteminin yaradılmasına dair zəruri tədbirlər görmək;

**3.2.7.** işçilərin əmək hüquqlarını davamlı surətdə təmin etmək məqsədilə əsassız olaraq müddətli müqavilələrin bağlanılmasına yol verməmək;

**3.2.8.** gənclərin, sosial müdafiə və xüsusi qayğıya ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən əhali qruplarının, əmək bazarına inteqrasiya olunmasının dəstəklənməsi istiqamətində işləri davam etdirmək;

**3.2.9.** valideyn himayəsindən məhrum olub, dövlət uşaq müəssisələrində yaşayan uşaqların oranı tərk etdikdən sonra təhsil almasına və iş yeri ilə təmin olunmasına köməklik göstərmək;

**3.2.10.** ölkə və regionlar üzrə məşğulluq proqramlarının həyata keçirilməsi üçün ayrılmış vəsaitin səmərəli istifadə olunmasına nəzarəti gücləndirmək;

**3.2.11.** mövcud iş yerlərinin saxlanılmasını və layiqli yeni iş yerlərinin yaradılmasını təmin edən işəgötürənlər üçün həvəsləndirici tədbirləri genişləndirmək;

**3.2.12.** əhalinin, xüsusilə işaxtaran və işsiz vətəndaşların məlumatlandırılması istiqamətində reklam-informasiya işini genişləndirmək, yeni yaradılmış iş yerləri haqqında təfsilatlı informasiya bazasını yaratmaq və geniş ictimaiyyətə çatdırmaq;

**3.2.13.** əmək bazarının məşğulluq və işsizlik səviyyəsinin real vəziyyətinin düzgün qiymətləndirilməsi məqsədilə iqtisadi zonalar üzrə təhlil işlərini davam etdirmək;

**3.2.14.** ali, orta ixtisas, ilk peşə-ixtisas və ümumtəhsil müəssisələrinin tələbə və şagirdlərinə əmək qanunvericiliyinin əsasları üzrə mühazirələr oxunmasını təşkil etmək;

**3.2.15.** əmək resurslarının daxili ərazi mobilliyini həvəsləndirən stimullar sisteminin gücləndirilməsi sahəsində məsləhətləşmələr aparmaq;

**3.2.16.** Beynəlxalq Əmək Təşkilatının 1988-ci ildə qəbul olunmuş "Məşğulluğa köməklik və işsizlikdən müdafiə haqqında" 168 nömrəli Konvensiyasının ratifikasiya imkanlarını araşdırmaq;

**3.2.17.** layiqli əməyin səviyyəsinin öyrənilməsi məqsədilə birgə tədqiqatlar keçirmək;

**3.2.18.** əməkçi miqrantların hüquqlarının müdafiəsi üzrə dövlətlərarası əməkdaşlığı həyata keçirmək, ölkələrarası sazişlərin bağlanılması təcrübəsindən istifadə etmək;

**3.2.19.** qeyri-formal məşğulluğun və əmək miqrasiyasının real vəziyyətinin öyrənilməsinə və onu yaradan səbəblərin aradan qaldırılmasına, eyni zamanda yaratdığı risklərlə bağlı ictimaiyyətin məlumatlandırılmasına dair işləri davam etdirmək;

**3.2.20.** sosial infrastrukturyönlü işlərin inkişaf etdirilməsi, xalq tətbiqi sənətinin dirçəldilməsi və inkişafı, turizm istirahət zonalarının yaradılması və bu sahələrə investisiyaların artırılması hesabına əhalinin məşğulluq səviyyəsinin artırılması;

**3.2.21.** peşə ixtisasları üzrə standartların beynəlxalq təcrübəyə əsaslanaraq hazırlanmasını davam etdirmək;

**3.2.22.** MDB ölkələri üçün təsdiq olunmuş ümumi əmək bazarının formalaşdırılması və işçi qüvvəsinin miqrasiyasının tənzimlənməsi üzrə prioritet tədbirlərdə iştirak etmək;

**3.2.23.** qeyri-rəsmi məşğulluğun aşkar edilərək, qarşısının alınmasında icbari tibbi sığortanın imkanlarından istifadə edilməsi məqsədilə tədbirlərin görülməsi;

**3.2.24.** qeyri-rəsmi məşğulluğun xarakterik olduğu iqtisadi fəaliyyət sahələrində (pərakəndə ticarət, iaşə, nəqliyyat, turizm xidməti və s.) qeydiyyatsız əmək fəaliyyətinin qarşısının alınması məqsədilə qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi və həmin sahələrdə fəaliyyətin gücləndirilməsi;

**3.2.25.** məcburi dövlət sosial sığorta haqları və məcburi dövlət sosial sığortası qaydalarının pozulmasına görə maliyyə sanksiyalarının (hesablanmış penya üzrə borcların) silinməsini həvəsləndirmək məqsədilə qanunvericiliyin təkmilləşdirilməsi;

**3.2.26.** beynəlxalq təcrübəyə uyğun olaraq, məcburi dövlət sığorta yükünün işəgötürənlər və işçilər arasında optimallaşdırılması üzrə tədbirlərin həyata keçirilməsi.

### 4. Sosial müdafiənin gücləndirilməsi istiqamətləri

**4.1.** Tərəflər Azərbaycan Respublikası vətəndaşlarının sosial müdafiəsi üzrə hüquqlarının təmin edilməsi üçün aşağıda göstərilən tədbirlərin həyata keçirilməsini zəruri hesab edirlər:

**4.1.1.** əhalinin sağlamlığının mühafizəsi üzərində ictimai nəzarətin gücləndirilməsi;

**4.1.2.** İİV/QİÇS-ə, şəkərli diabet, hemofiliya, talassemiya və digər xroniki xəstəliklərə tutulanların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində tədbirlərin davam etdirilməsi;

**4.1.3.** məktəbəqədər təhsil müəssisələrində uşaq qidasının keyfiyyətinin yaxşılaşdırılması məqsədilə müvafiq tədbirlərin həyata keçirilməsinin davam etdirilməsi;

**4.1.4.** məktəb tətilləri zamanı uşaqların istirahətinin təşkili və genişləndirilməsi işinin davam etdirilməsi;

**4.1.5.** iş yerlərində şəxslərin təbii və reproduktiv xüsusiyyətləri nəzərə alınmaqla, müasir tələblərə cavab verə biləcək sanitariya-gigiyena normalarının işlənilib hazırlanması;

**4.1.6.** işəgötürənlər tərəfindən sığortaolunanlar barədə fərdi uçot haqqında qanunvericiliklə müəyyən olunmuş məlumatların vaxtında verilməsinin təmin edilməsi;

**4.1.7.** müəssisə, təşkilat və idarələrdə işçilərin məzuniyyət hüququndan istifadə etmələrinə nəzarətin gücləndirilməsi;

**4.1.8.** əhaliyə şəxsi mənzil tikintisi üçün torpaq sahələrinin ayrılması prosesinin və mənzil tikintisi üçün kreditlərin verilməsi sisteminin təkmilləşdirilməsinə nəzarətin gücləndirilməsi;

**4.1.9.** uşaq əməyinin, məcburi əməyin və insan alverinin aradan qaldırılmasını təmin edən, əmək miqrasiyasını tənzimləyən dövlət sosial proqramlarının dəstəklənməsi, birgə monitorinqlərin təşkil edilməsi;

**4.1.10.** ölkənin şəhər və rayonlarında məktəbyaşlı uşaqların təhsildən yayınması hallarının üzə çıxarılması, onun səbəblərinin araşdırılması və uşaqların məktəblərə qaytarılması üzrə yerli icra hakimiyyəti, həmkarlar ittifaqı və təhsil orqanlarının nümayəndələrindən ibarət komissiyaların yaradılması;

**4.1.11.** ali, orta ixtisas və ilk peşə-ixtisas təhsili müəssisələrində təhsil alan tələbə və şagirdlərin yataqxana ilə təmin olunması məqsədilə təkliflərin hazırlanması;

**4.1.12.** əlillərin, sağlamlıq imkanları məhdud uşaqların və əlil gənclərin stasionar şəraitdə tibbi-sosial reabilitasiyasının genişləndirilməsi;

**4.1.13.** ünvanlı dövlət sosial yardımı və tibbi-sosial ekspertiza xidmətlərinin elektron texnologiyalar üzərində avtomatlaşdırılması işinin təkmilləşdirilməsinin davam etdirilməsi;

**4.1.14.** sığorta-pensiya sisteminin davamlı və dinamik inkişafına nail olunması məqsədilə islahatların davam etdirilməsi;

**4.1.15.** işəgötürənlər tərəfindən sosial sığorta haqlarının vaxtında və tam həcmdə köçürülməsi üzərində birgə nəzarəti gücləndirmək;

**4.1.16.** icbari tibbi sığortanın tətbiqinə və təkmilləşdirilməsinə nail olunması istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsi;

**4.1.17.** qanunvericilikdə nəzərdə tutulmuş hallarda işçilərin ilkin və dövri tibbi müayinədən keçirilməsini təmin etmək və bu istiqamətdə nəzarəti gücləndirmək;

**4.1.18.** Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 4 noyabr tarixli 827 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2014-2020-ci illərdə Azərbaycan Respublikasında pensiya təminatı sisteminin islahatı Konsepsiyası"nın icrası istiqamətində tədbirlərin davam etdirilməsi;

**4.1.19.** uşağın 3 yaşı tamam olanadək qismən ödənişli sosial məzuniyyətdən istifadə etdiyi müddətin qadınların əmək və sığorta stajına daxil edilməsindən ötrü müvafiq qanunvericilikdə dəyişikliklər etmək;

**4.1.20.** Beynəlxalq Əmək Təşkilatının "Sosial təminatının minimum normaları haqqında" 102 nömrəli Konvensiyasının ratifikasiyasını sürətləndirmək;

**4.1.21.** "Tibbi sığorta haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqinin genişləndirilməsi zərurətini nəzərə alaraq, sığortaolunan şəxslərin sosial mənafeyini qorumaq məqsədilə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin müvafiq strukturları ilə qarşılıqlı və birgə fəaliyyət göstərmək;

**4.1.22.** Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun əməkdaşları ilə birgə pensiya qanunvericiliyində edilmiş dəyişikliklərə dair məlumat kampaniyasını davam etdirmək, həmkarlar ittifaqı fəallarını yeniliklərlə tanış etmək, qüvvədə olan qanunvericilikdə edilmiş dəyişikliklərin əsaslandırılmış faktlarla real vəziyyətlə bağlılığını müəyyən etmək;

**4.1.23.** müxtəlif kateqoriyalı məşğul şəxslərin məcburi dövlət sosial sığorta sistemi ilə əhatə olunmasını genişləndirmək;

**4.1.24.** vətəndaşların pulsuz tibbi yardıma dövlət zəmanətinin təmin edilməsinə istiqamətləndirilmiş tədbirləri müəyyən etmək və həyata keçirmək, əhalinin dispanserizasiyasının keçirilməsinə, sağlamlığının qorunması və möhkəmləndirilməsinə, sağlam həyat tərzi üçün, o cümlədən bədən tərbiyəsi və idmanın inkişafına birgə nəzarəti gücləndirmək;

**4.1.25.** "Sosial sığorta haqqında" qanunun təkmilləşdirilməsi ilə bağlı təkliflər hazırlamaq;

**4.1.26.** üç yaşınadək uşağa qulluqla əlaqədar verilən müavinətin artırılması ilə bağlı tədbirlər görmək.

davamı 5-ci səhifədə

# “Xocalı şahidləri danışır”

## kitabının təqdimatı olub




***Fevralın 22-də Beynəlxalq Mətbuat Mərkəzində “Xocalı şahidləri danışır” kitabının təqdimatı keçirilib.***

“Azərbaycan” qəzeti tərəfindən nəşr edilən kitabda Xocalı soyqırımının şahidi olan insanların acı xatirələri əksini tapıb.

Kitabın ideya müəllifi Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi **Əli Həsənov**, redaktoru “Azərbaycan” qəzetinin baş redaktoru, Milli Məclisin deputatı **Bəxtiyar Sadıqov**, buraxılışa məsul Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdir müavini **Ərəstun Mehdiyev**, tərtibçisi isə “Azərbaycan” qəzetinin şöbə redaktoru **İxtiyar Hüseynlidir**.

Kitab Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun maliyyə dəstəyi ilə nəşr olunub.

Təqdimat mərasimində əvvəlcə Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Mərasimin moderatoru, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun icraçı direktoru **Oktay Səmədov** Azərbaycan xalqının yaddaşına əbədi həkk olunmuş Xocalı soyqırımının 26-cı ildönümü ərəfəsində işıq üzü görən “Xocalı şahidləri danışır” kitabının əhəmiyyətindən söhbət açıb. Bildirib ki, Xocalı faciəsinin canlı şahidlərinin kitabda toplanmış xatirələri xüsusi önəm daşıyır. O.Səmədov Prezident İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın Xocalı soyqırımı haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində gördükləri işlərdən danışıb.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi sədrinin müavini Gəray Fərhadov çıxış edərək Ermənistanın Azərbaycana qarşı yürütdüyü təcavüzkar siyasətin ağır nəticələrindən bəhs edib. Diqqətə çatdırıb ki, Ermənistan Azərbaycana qarşı bir əsrdə dörd dəfə ərazi iddiası qaldırıb. Ermənistan “böyük Ermənistan” yaratmaq xülyası ilə torpaqlarımıza göz dikib. Qeyd edib ki, Prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov kitaba yazdığı ön sözdə bu hadisələrin xronologiyasını, tarixi köklərini ətraflı şəkildə göstərib.

Milli Məclis sədrinin müavini **Bahar Muradova** çıxış edərək bildirib: “Bu cür kitabların yazılması çox vacibdir. Biz bu hadisələri qələmə almaqla onları tarixi fakta çeviririk. Hesab edirəm ki, bu kitab qanlı Xocalı soyqırımını törədənlərin tarixi məhkəməsinin qurulması üçün bir mənbə rolunu oynayacaqdır”.

Milli Məclisin mədəniyyət komitəsinin sədri, akademik **Rafael Hüseynov** da çıxışında bu kitabdan gələcəkdə beynəlxalq səviyyədə bir hüquqi sənəd kimi istifadə ediləcəyinə əminliyini bildirib.

Xocalı Rayon İcra Hakimiyyətinin başçısı **Şahmar Usubov** Xocalı faciəsinin dünyada tanıdılması istiqamətində mühüm işlərin görüldüyünü deyib. Kitabın əhəmiyyətindən danışan icra başçısı bildirib ki, kitabda 200 il ərzində ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımları, ermənilərin Azərbaycan ərazilərinə köçürülməsi, onların terror təşkilatları yaratmaları barədə faktlar yer alıb.

Təqdimat mərasimində Xocalı sakini **Mehriban Əliyevanın,** Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru **Elçin Əhmədovun**, Milli Məclisin deputatı **Rafael Cəbrayılovun**, “Azərbaycan” qəzetinin baş redaktoru, Milli Məclisin deputatı **Bəxtiyar Sadıqovun** da çıxışları dinlənildi.




**“Xocalı haqqında həqiqətlərin dünyaya çatdırılması, bu faciənin xalqımıza qarşı soyqırımı aktı kimi tanınması üçün təkcə ötən il ərzində Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə ümumilikdə 150-dən çox tədbir keçirilib”.**

**Bunu Komitə sədrinin birinci müavini Valeh Hacıyev dedi. Bildirdi ki, Azərbaycan diaspor təşkilatları tərəfindən Ermənistanın, erməni diaspor və lobbi qruplarının ölkəmiz əleyhinə təbliğat kampaniyalarının qarşısının alınması məqsədilə müxtəlif formatlı tədbirlər təşkil edilmişdir. Xarici ölkələrin KİV-də ölkəmizlə bağlı mütəmadi olaraq məlumatlar yayımlanmışdır.**

# Dünya bu soyqırımı tanımalıdır

***- Bu tədbirlər konkret olaraq hansı ölkələrdə keçirilmişdir?***

- ABŞ, Almaniya, Türkiyə, İsveç, Litva, Ukrayna, Gürcüstan, Rusiya, Fransa, Belçika, Niderland və digər ölkələrin adlarını çəkə bilərəm. Tədbirlərin formatı da müxtəlif olmuşdur: kütləvi etiraz aksiyaları, konfransları və seminarları, anım mərasimləri, fotosərgilər, mətbuatda konfranslar... Həmçinin adını sadaladığım ölkələrin telekanallarına, yazılı mətbuat orqanlarına Xocalı soyqırımından bəhs edən müsahibələr verilmişdir. İctimaiyyət arasında Xocalı soyqırımına həsr olunmuş materiallar yayılmışdır. Həmçinin, Türkiyənin İzmir şəhərinin Karabağlar rayonu ərazisində yerləşən “Azərbaycan-Qarabağ-Xocalı” Parkında Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış abidənin açılışı olmuşdur.

Bundan başqa, “Xocalıya ədalət!” beynəlxalq kampaniyası çərçivəsində Azərbaycan diasporunun yaxından iştirakı ilə bir çox ölkədə bir sıra tədbirlər, etiraz aksiyaları təşkil olunub.

Birgə fəaliyyətin nəticəsi olaraq artıq Meksika, Pakistan, Kolumbiya, Çexiya, Bosniya və Herseqovina, Peru, Honduras, Cibuti parlamentləri, ABŞ-ın 21 ştatı və İslam Əməkdaşlıq Təşkilatı Xocalı qətliamını soyqırımı və insanlığa qarşı cinayət kimi tanıyıb. Dünyanın bir çox ölkəsində - Hollandiya, Almaniya, Sarayevo, Bosniya və Herseqovina, Meksika və Türkiyənin Ankara, İzmit, İzmir və Sakarya şəhərlərində Xocalı soyqırımına aid abidələr ucaldılıb.

***- Xocalı soyqırımının 26-cı ildönümü ilə bağlı hansı ölkələrdə anım mərasimi təşkil edəcəksiniz?***

- Bəli artıq dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən diaspor təşkilatlarımızın keçirdiyi tədbirlər intensivləşib. Amma bu il ən böyük tədbirlərimizdən biri fevralın 26-da Amsterdamda keçiriləcək. Avropa Azərbaycanlıları Konqresinin (AAK) təşkilatçılığı ilə Niderland Krallığının Amsterdam şəhərində Xocalı soyqırımının 26-cı ildönümünə həsr olunmuş konsert-rekviem təşkil olunacaq. Amsterdamın “De Rode Hoed” Mərkəzində simfonik orkestrin iştirakı ilə baş tutacaq tədbirdə yerli ictimaiyyət nümayəndələri, xarici ölkələrdəki Azərbaycan icmasının üzvləri, Avropadakı Azərbaycan diaspor təşkilatlarının rəhbərləri iştirak edəcəklər. Belə kütləvi tədbirlər, Avropanın digər dövlətlərində, Türkiyədə, ABŞ-da, Kanadada və digər ölkələrdə də keçiriləcək. Nyu York şəhərində BMT-nin mənzil qərargahı qarşısında, Vaşinqtondakı, Brüsseldəki Ermənistan səfirlikləri qarşısında, eləcə də Almaniyanın bir sıra şəhərlərində - Maqdeburq, Bielfel şəhərlərində, Niderlandın Haaqa şəhərində, Danimarkanın paytaxtı Kopenhagendə, İsveçin paytaxtı Stokholmda azərbaycanlıların etiraz aksiyaları, yürüşlər təşkil ediləcək və qarşıdakı günlərdə belə tədbirlər daha da intensivləşəcək. Kanadada faciənin ildönümü ilə əlaqədar keçirilən tədbirlər demək olar ki, ölkənin bir çox şəhərlərini əhatə edir. Türk və Azərbaycan diasporunun güclü olduğu Almaniyada bu il də genişmiqyaslı aksiyalar keçirilməkdədir. Berlin, Hannover, Hamburq, Frankfurt, Maqdeburq, Drezden kimi şəhərlərdə fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatları fotosərgi, konfrans və etiraz aksiyaları təşkil etməklə ictimaiyyətin diqqətini bu faciəyə yönəldir. Bundan əlavə, ictimai nəqliyyat vasitələrində faciəyə həsr olunmuş videoçarx və posterlərin yayılması nəzərdə tutulur. Bununla yanaşı, yerli kanallarda Xocalı soyqırımını əks etdirən filmlərin nümayişi, rəsmi qurumlara və beynəlxalq təşkilatlara müraciətlər kampaniyanın tərkib hissəsidir. Qardaş Türkiyədə də Xocalı soyqırımına həsr olunmuş tədbirlər, görüşlər, aksiyalar həyata keçirilir. Türkiyənin Sakarya şəhərində “Xocalı soyqırımı” abidəsinin açılışı olacaq, Türkiyə Böyük Millət Məcilisində dinləmələr, Kocaeli Universitetində Xocalı soyqırımının 26-cı ildönümünə həsr olunmuş konfrans və digər tədbirlər keçiriləcək.

**Əsli ƏHMƏDOVA**

əvvəlli 4-cü səhifədə

**5. Əmək hüquqlarının müdafiəsi, əməyin mühafizəsi, texniki və ekoloji təhlükəsizlik**

5.1. Əmək hüquqlarının müdafiəsini, əməyin mühafizəsini, texniki və ekoloji təhlükəsizliyi əməkdaşlığın əsas istiqamətlərindən biri kimi qiymətləndirərək, Tərəflər aşağıdakı öhdəlikləri yerinə yetirməyi öz üzərilərinə götürürlər:

5.1.1. içməli su, onun təchizatı və keyfiyyəti barədə qanun layihəsinin qəbul edilməsinə nail olmaq;

5.1.2. əməyin təhlükəsizliyi və sağlamlaşdırılması sahəsində əsas məqsədlərə çatmaq üçün “Azərbaycan Respublikasında əməyin təhlükəsizliyi və sağlamlaşdırılması üzrə Milli Strategiya”nın qəbul edilməsini sürətləndirmək;

5.1.3. normativ sənədlərin layihəsini hazırlamaq:

peşə xəstəliklərinin analizi və uçota alınması qaydaları;

dövlət və müəssisələr səviyyəsində əməyin mühafizəsi fondunun Əsasnaməsinin layihəsi.

5.1.4. əməyin mühafizəsi üzrə mütəxəssislərin hazırlanması, ixtisaslarının artırılması, təcrübə mübadiləsinin aparılması üçün şərait yaratmaq;

5.1.5. əməyin mühafizəsi tələblərinin gücləndirilməsi məqsədilə əmək qanunvericiliyinin təkmilləşdirilməsi üzrə təkliflər hazırlamaq;

5.1.6. “Əməyin mühafizəsi haqqında” qanun layihəsini hazırlamaq;

5.1.7. əmək şəraiti zərərli və təhlükəli olan istehsalatlarda işləyənlər üçün kollektiv və fərdi mühafizə vasitələri istehsalının imkanlarını araşdırmaq;

5.1.8. iş yerlərində, o cümlədən sənaye müəssisələrində insanların sağlamlığının qorunması məqsədilə ekoloji təhlükəsizliyi təmin etmək;

5.1.9. əməyin təhlükəsizliyi normaları və standartları üzrə milli informasiya sistemini yaratmaq;

5.1.10. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq işəgötürən tərəfindən işçilərin istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığortalanmasını təmin etmək;

5.1.11. işçilərə bədən tərbiyəsi və idmanla, o cümlədən iş rejimi şəraitində və işdən sonrakı reabilitasiya və peşəkar-tətbiqi məşqlərlə məşğul ola bilmələri üçün lazımi şərait yaratmaq;

5.1.12. işçilərə və onların ailə üzvlərinə bədən tərbiyəsi və idmanla məşğul olmaq üçün balanslarında olan idman obyektləri və bazalarını təmənnasız təqdim etmək, bu idman obyektlərinin və bazaların saxlanılmasını təmin etmək;

5.1.13. işçilərə əmək qabiliyyətlərinin yüksəldilməsi və sağlamlıqlarının möhkəmləndirilməsi məqsədilə istirahət evləri, turist bazaları və sanatoriya-kurort müəssisələrinə müvafiq göndərişlər (yollayışlar) vermək;

5.1.14. Beynəlxalq Əmək Təşkilatının “Əməyin təhlükəsizliyi və gigiyenası haqqında” 1981-ci il tarixli 155 nömrəli, “Kənd təsərrüfatında əməyin təhlükəsizliyi və gigiyenası haqqında” 2001-ci il tarixli 184 nömrəli, “Əmək təhlükəsizliyinin və gigiyenasının təmin edilməsinin əsasları haqqında” 2001-ci il tarixli 187 nömrəli konvensiyalarının ratifikasiya imkanlarını araşdırmaq;

5.1.15. idarə, müəssisə və təşkilatlarda çalışan işçilərin asudə vaxtlarının səmərəli təşkili üçün davamlı olaraq mədəni-kütləvi, sosial, turist-ekskursiya və idman tədbirlərində onların iştirakını təmin etmək;

5.1.16. işçilərin, xüsusilə gənc nəslin, əmək qanunvericiliyi və əməyin mühafizəsi norma və qaydaları barədə mütəmadi məlumatlandırılması məqsədilə respublikanın müxtəlif bölgələrində regional xarakterli seminarlar keçirmək;

5.1.17. nazirlik, komitə, idarə, müəssisə və digər qurumlar tərəfindən əmək hüquqlarının müdafiəsi, əməyin mühafizəsi, texniki və ekoloji təhlükəsizlik qaydalarına əməl olunması məqsədilə Baş Kollektiv Sazişin qüvvədə olduğu müddətdə həmkarlar ittifaqı təşkilatının nümayəndəsinin də daxil olduğu komissiyalar yaradılmaqla, bu sahədə tənzimləməni həyata keçirmək;

5.1.18. əmək qanunvericiliyinin təkmilləşdirilməsini davam etdirmək;

5.1.19. əhalinin sağlamlığı və ətraf mühitin qorunması məqsədilə yaşıllıqların salınması və onlara qulluq edilməsi, ərazilərin məişət tullantılarından təmizlənməsi üçün əmək kollektivlərinin iməciliklərini təşkil etmək;

5.1.20. Beynəlxalq Əmək Təşkilatının transmilli şirkətlərin fəaliyyətinin və sosial siyasətinin prinsipləri haqqında üçtərəfli Bəyannaməsinə əsasən transmilli şirkətlərdə, xarici sərmayə ilə işləyən və müştərək müəssisələrdə çalışan işçilərin əmək və sosial-iqtisadi hüquqlarının qorunması ilə bağlı birgə iş aparmaq.

**6. Sosial partnyorluq və Tərəflərin fəaliyyətinin əlaqələndirilməsi**

6.1. Tərəflər hesab edirlər ki, sosial tərəfdaşlığın inkişaf etdirilməsi, əsas sosial və iqtisadi məsələlər, əmək münasibətlərinin tənzimlənməsi üzrə qərarlar qəbul edilərkən sosial partnyorluğun imkanlarından daha səmərəli istifadə olunması zəruridir.

6.2. Bu məqsədlə Tərəflər aşağıdakı öhdəlikləri yerinə yetirməyi öz üzərlərinə götürürlər:

6.2.1. sosial-iqtisadi siyasətin əsas istiqamətləri üzrə müntəzəm məsləhətləşmələr aparmaq, sosial tərəfdaşlardan ibarət üçtərəfli komissiyanın fəaliyyətini gücləndirmək;

6.2.2. sosial-əmək münasibətləri, əhalinin məşğulluğu, miqrasiya və sosial təminat sahəsində milli proqram, qanun və digər normativ hüquqi aktların layihələrini müzakirə etmək;

6.2.3. “Həmkarlar ittifaqları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq işçilərin əmək, sosial və iqtisadi hüquqlarına dair qanun layihələri və digər normativ aktlar hazırlanarkən həmkarlar ittifaqlarının mövqeyini nəzərə almaq;

6.2.4. Beynəlxalq Əmək Təşkilatının dəstəyini almış “İşəgötürənlər birlikləri haqqında” Azərbaycan Respublikası Qanununun qəbul edilməsinə səy göstərmək;

6.2.5. işəgötürənlər təşkilatlarının korporativ sosial məsuliyyət sahəsində təşəbbüslərini hərtərəfli dəstəkləmək, “İlin ən yaxşı sosial layihəsi”, “Ən yaxşı kollektiv müqavilə”, “Ən yaxşı sosial-məsuliyyətli müəssisə”, “Peşəsinin ən yaxşı ustası” müsabiqələrinin təşkil edilməsini nəzərdən keçirmək;

6.2.6. dövlət əmlakının özəlləşdirilməsi zamanı əmək kollektivlərinin maraqlarını tam nəzərə almaq məqsədilə müəssisələrdə yaradılan komissiyaların tərkibinə həmkarlar ittifaqı nümayəndələrinin daxil edilməsini təmin etmək;

6.2.7. MDB ölkələrinin Parlamentlərarası Assambleyası tərəfindən qəbul olunmuş model qanunlardan və digər normalardan milli qanunvericiliyin təkmilləşdirilməsində istifadə etmək, bu qurum tərəfindən təsdiqlənən “Səhmdar cəmiyyətləri haqqında” model qanunun mülahizələrinə əsasən, ölkənin səhmdar cəmiyyətlərinin rəhbər orqanlarında işçilərin nümayəndələrinin təmsil olunmasını tövsiyə etmək.

6.3. Tərəflər həmkarlar ittifaqlarının və işəgötürənlərin fəaliyyətinə müdaxilə olunmaması ilə bağlı tanınmış beynəlxalq qərar və normalara riayət edilməsinə təminat verirlər, həmkarlar ittifaqları və işəgötürənlər təşkilatlarının yaradılmasına mane olmurlar, həmkarlar ittifaqlarının qanunvericilikdə nəzərdə tutulmuş vəzifələrini yerinə yetirmək məqsədilə respublikanın ərazisində fəaliyyət göstərən bütün müəssisə və təşkilatlara daxil olmasına kömək edəcəklər.

6.4. Tərəflər aşağıdakı məsələlərin həllinə kömək göstərməyi öhdəlik kimi qəbul edirlər:

6.4.1. mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, respublikanın ərazisində yerləşən müəssisələrdə sosial-əmək münasibətlərinin sosial partnyorluq prinsipləri əsasında tənzimlənməsi;

6.4.2. iqtisadi imkanlar nəzərə alınmaqla, əmək qanunvericiliyinə nisbətən daha geniş əlavə əmək, sosial-iqtisadi, maddi-məişət və digər münasibətləri əhatə edən sahə (tarif) və ərazi (rayon) kollektiv sazişlərin və kollektiv müqavilələrin bağlanılması və həyata keçirilməsi;

6.4.3. sahə kollektiv sazişlərin və kollektiv müqavilələrin bağlanılması üzərində birgə nəzarətin gücləndirməsi.

6.5. Tərəflər nəzərə alırlar ki, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi sosial tərəfdaşlar tərəfindən razılaşdırılmış göstəricilər üzrə əhalinin həyat səviyyəsinin statistik müşahidəsini daim həyata keçirir və Baş Kollektiv Sazişin əlavəsində əks olunan göstəricilər üzrə yarım ildə bir dəfə (avqust və fevral aylarında) Tərəflərə məlumat verir.

6.6. Tərəflər sosial-əmək və iqtisadi münasibətlər sahəsində yaranan kollektiv əmək mübahisələrinin (münaqişələrinin) tənzimlənməsi üçün onlardan asılı olan bütün zəruri tədbirləri həyata keçirir, bu sahədə infrastrukturun təkmilləşdirilməsini və birgə əməkdaşlığı təşkil edirlər.

6.7. Hər bir Tərəf qəbul olunmuş öhdəliklərin icrasını təmin edən tədbirlər hazırlayır.

6.8. Tərəflər götürdükləri öhdəlikləri yerinə yetirmədikdə, qanunda nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

6.9. Baş Kollektiv Sazişin icrasına nəzarəti Tərəflərin müvafiq komissiyaları həyata keçirir və nəticələr hər ilin yekunlarına görə müzakirə edilir.

6.10. Baş Kollektiv Sazişdə dəyişikliklər Tərəflərin qarşılıqlı razılığı əsasında edilir.

6.11. Baş Kollektiv Saziş 2018-2019-cu illər üçün bağlanılır və imzalandığı gündən qüvvəyə minir. Yeni danışıqlar qüvvədə olan Baş Kollektiv Sazişin müddəti başa çatanadək bitmədiyi təqdirdə, bu Baş Kollektiv Sazişin müddəti Tərəflərin razılığı ilə üç ayadək uzadıla bilər.

6.12. Baş Kollektiv Sazişin icrası və sosial-əmək münasibətlərinin tənzimlənməsi üzrə Tərəflərin fəaliyyətini işıqlandırmaq məqsədilə Tərəflər sosial tərəfdaşlığın inkişafına həsr edilmiş materialları respublikanın kütləvi informasiya vasitələri ilə yayırlar.

6.13. Baş Kollektiv Sazişə daxil edilmiş müddəalar Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə başqa hal nəzərdə tutulmayıbsa, mülkiyyət formasından asılı olmayaraq respublika ərazisində fəaliyyət göstərən bütün müəssisə, idarə və təşkilatlara şamil edilir.

**Baş Kollektiv Sazişə**
**ƏLAVƏ**
*Əsas sosial-iqtisadi göstəricilər*

*◊ Ümumi Daxili Məhsul (mln.manatla).*

*◊ Əsas kapitala investisiyaların Ümumi Daxili Məhsulda payı (faizlə).*

*◊ İdman və turizm sektorlarına yönəldilmiş investisiyaların həcmi (mln.manatla).*

*◊ Sosial-mədəni tədbirlərə dövlət büdcəsindən ayrılan xərclər (mln.manatla).*

*◊ Ümumi Daxili Məhsulda faizlə - (hər il may ayının ikinci ongünlüyü).*

*◊ Daimi əhalinin sayı (min nəfər) - (hər il may ayının ikinci ongünlüyü).*

*◊ Doğulanlarda gözlənilən ömür uzunluğu (yaş sayı) - (hər il may ayının ikinci ongünlüyü).*

*◊ Doğumun ümumi əmsalı (əhalinin hər 1000 nəfərinə).*

*◊ Ölümün ümumi əmsalı (əhalinin hər 1000 nəfərinə).*

*◊ Əhalinin təbii artım əmsalı (əhalinin hər 1000 nəfərinə).*

*◊ Əhalinin hər nəfərinə düşən gəlirlər (manatla).*

*◊ Əhalinin sərəncamında qalan gəlirlərin real artım sürəti (müqayisə edilən dövrə nisbətən, faizlə).*

*◊ Hesablanmış orta aylıq əməkhaqqı (manatla):*

*– nominal (manatla, faizlə artım);*

*– real (faizlə artım);*

*–iqtisadi fəaliyyət növləri üzrə (manatla).*

*◊ Ümumi Daxili Məhsulda əmək ödənişlərinin xüsusi çəkisi (faizlə).*

*Təyin olunmuş pensiyalar:*

*– orta aylıq məbləğ (manatla);*

*– nominal (manatla, faizlə artım);*

*– real (faizlə artım).*

*◊ İstehlak qiymətləri indeksi (faizlə).*

*◊ Ailə büdcəsindən qida üçün sərf olunan orta məbləğ (manatla).*

*İqtisadiyyatda məşğul olanların sayı (min nəfərlə).*

*◊ İqtisadi fəal əhalinin sayı (min nəfərlə).*

*◊ Məşğul əhalinin bölünməsi (min nəfərlə):*

*məşğulluq statusu üzrə (hər il may ayının ikinci ongünlüyü);*

*iqtisadi fəaliyyət növləri üzrə;*

*◊ İşsiz əhalinin sayı (min nəfərlə).*

*◊ İşsiz statusu olan şəxslərin sayı (min nəfərlə).*

*◊ Bir iş yeri vakansiyasına düşən işsiz statusu olanların sayı.*

*◊ İstehsalat xəsarətləri (zədələri), o cümlədən:*

*ölümlə nəticələnən.*

*◊ Ağır fiziki əməklə məşğul olanların sayı.*

*◊ Əsas növlər üzrə peşə xəstəlikləri (hər il iyun ayının ikinci ongünlüyü).*

*Layiqli əməyə dair mövcud göstəricilər.*

*◊ Muzdla işləyənlərin xüsusi çəkisi (faizlə), o cümlədən qadınların (hər il iyun ayının ikinci ongünlüyü).*

# AHİK-in V QURULTAYINDA ÇIXIŞLAR



**Gülnarə ƏLİYEVA,**
**"Azərbaycan Hava Yolları" QSC-nin Personalla İş üzrə Baş İdarənin sosioloqu**

**Hörmətli sədarət!**
**Hörmətli qurultay nümayəndələri!**
**Xanımlar və cənablar!**

Hesabat illəri dünya iqtisadiyyatında böhranlarla müşahidə olunmuşdur. Lakin ölkəmizin rəhbərliyinin müdrik iqtisadi, maliyyə siyasəti bütün sahələrdə olduğu kimi, aviasiya sistemində də inkişafa mane ola bilməmişdir. Bu müdrik siyasət bizə həmkarlar ittifaqına da imkan vermişdir ki, sahə işçilərinin əmək-sosial hüquqlarının keşiyində ləyaqətlə duraq. Məhz "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin rəhbərliyi və Respublika Komitəsi arasında aparılan dialoq-danışıqlar nəticəsində çətin iqtisadi böhran dövründə ixtisarların, məcburi məzuniyyətə göndərilmənin və sosial müavinətlərin azaldılmasının qarşısı alınmışdır. 2017-ci il yanvarın 1-dən isə Qapalı Səhmdar Cəmiyyətinin bütün idarə, müəssisə və təşkilatlarında çalışan işçilərin vəzifə maaşı 20% artırılmışdır.

Sahə kollektiv sazişinin "Sosial güzəştlər və zəmanətlər" bölməsinə 20 bənd daxil edilmişdir. Mülki Aviasiya sistemində 15 il və daha artıq çalışan hər bir kollektiv üzvü yubiley (50,60,70,80) yaşına çatdıqda fasiləsiz və qüsursuz əmək fəaliyyətinə görə vəzifə maaşı məbləğində mükafatlandırılır. 25 il və daha çox işləmiş aviatorlar yaşa görə təqaüdə çıxdıqda onlara axırıncı vəzifə maaşı həcmində birdəfəlik müavinət verilir.

İşçilərə verilən yollayışın dəyərinin 15 %-i işəgötürən tərəfindən ödənilir. QSC-nin hər bir işçisi uçuş reyslərinə ildə bir dəfə, ailə üzvləri də daxil olmaqla, pulsuz bilet, həmin il üçün müddətsiz qaydada biletin dəyərinin 50%-ni ödəməklə bilet almaq hüququna malikdir.

Respublika Komitəsinin V plenumunun qərarı ilə həkimin təyinatı əsasında respublikadan kənara müalicəyə göndərilən hər bir uçuş heyəti üzvünə istifadə etdiyi yollayışa görə, qiymətindən asılı olmayaraq, 700 manat məbləğində maddi yardım göstərilir. 2012-2017-ci illər ərzində Uçuşların İstehsalı İdarəsinin 155 nəfər uçuş heyət üzvü bu imkandan istifadə etmişdir.

Aviasiya işçilərinin əməyinin mühafizəsi, iş yerlərində təhlükəsizlik texnikasının təmin edilməsi, ətraf mühitin mühafizəsinin və ekoloji mühitin yaxşılaşdırılması, istehsalatda baş verə biləcək bədbəxt hadisələrin vaxtında qarşısının alınması, əməyin mühafizəsində standartlar və vahid idarətetmə sisteminin tətbiqi, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasından və dövlət orqanlarından daxil olan normativ sənədlər əsasında həyata keçirilir.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının İcraiyyə Komitəsi ayrı-ayrı sahələrdə fəaliyyət göstərən gənclər arasında müxtəlif sənət növlərinə, peşələrə və əmək fəaliyyətinə marağın artırılması, onların qüvvə və bacarıqlarının respublikamızın sosial-iqtisadi inkişafına səfərbər olunması məqsədilə təşkil etdiyi "İlin peşəkar gənci" fəxri adına 2016-2017-ci illər ərzində 4 nəfər gənc işçimiz layiq görülmüşdür.

**Hörmətli nümayəndələr!**

Bizi narahat edən aşağıdakı məsələləri təklif şəklində səsləndirməklə, onların müvafiq təşkilatlar və orqanlar qarşısında qaldırılmasını Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının yeni seçiləcək rəhbərliyindən xahiş edirik:

1. Nazirlər Kabinetnin 26 oktyabr 2006-cı il tarixli 231 saylı "Mülki aviasiya uçuş və uçuş-sınaq heyətində işləyənlərin sığorta stajlarının hesablanması Qaydaları" nın təsdiq edilməsi haqqında qərarının 2.1-ci bəndinə əsasən, sığorta stajı yalnız hava gəmisinin və digər uçuş aparatlarının heyət üzvlərinə (yəni kapitan, ikinci pilot, naviqator (şturman), bort mühəndisi, bortmexanik, bortradist və digər uçuş mütəxəssisləri) və 2.2-ci bəndə əsasən, uçuş təlimatçı heyət üzvlərinə (təlimatçı kapitan, böyük təlimatçı pilot, təlimatçı pilot, təlimatçı naviqator (şturman), təlimatçı bort mühəndisi, təlimatçı bort mexanik, təlimatçı bortradist) aid edilmişdir.

Halbuki hava gəmisində, yuxarıda adıçəkilən heyət üzvləri ilə yanaşı, eyni zamanda təyyarə bələdçiləri də uçuş heyətinin üzvləri sayılırlar. "Mülki aviasiya uçuş və uçuş-sınaq heyətində işləyənlərin sığorta stajlarının hesablanması Qaydaları" nın 2.1. və 2.2-ci bəndlərində uçuş heyəti üzvləri kimi təyyarə bələdçilərinin də nəzərə alınmasını təklif edirik.

2. Təklif edirik ki, işçilərin əməkhaqlarının vaxtlı-vaxtında ödənilməsini təmin etmək üçün ciddi tədbirlər görülsün. Maaşlar gecikdirildiyi təqdirdə işəgötürənlərdən yubadılmış vaxta görə işçilərə kompensasiyaların verilməsi müvafiq olaraq qanunvericilikdə öz əksini tapsın.

**Hörmətli nümayəndələr!**

Sizin nəzərinizə çatdırıram ki, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri vəzifəsinə yenidən hörmətli Səttar Möhbalıyevin namizədliyi irəli sürülsün və yekdilliklə dəstəklənsin. Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının hesabat dövrü ərzindəki fəaliyyətini müsbət qiymətləndirirəm və eyni zamanda təftiş komissiyasının hesabatının təsdiq olunmasını təklif edirəm.

Bildiyiniz kimi, bu ilin aprel ayının 11-də Azərbaycan Respublikasında prezident seçkiləri keçiriləcəkdir. Prezident İlham Əliyevin həyata keçirdiyi davamlı və məqsədyönlü siyasət nəticəsində Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlət kimi daha da güclənmiş, müasir cəmiyyət quruculuğu yolunda mühüm nailiyyətlər əldə etmişdir.

Bütün bunları nəzərə alaraq növbəti prezident seçkilərində İlham Heydər oğlu Əliyevin namizədliyinin irəli sürülməsini və dəstəklənməsini xahiş edirəm.

***Diqqətinizə görə minnətdaram!***

***Hörmətli sədr!***
***Hörmətli qurultay iştirakçıları və qonaqlar!***
***Xanımlar və cənablar!***

2014-cü ildə "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin yaranması Metropoliten İşçiləri Həmkarlar İttifaqı Birliyində də təşkilati islahatlar aparmaq zərurəti yaratdı. Birliyin həmin il sentyabr ayının 17-də AHİK sədri, millət vəkili Səttar Möhbalıyevin iştirakı ilə keçən IV Məclisinin iclasında təşkilatın yeni strukturu və gələcək vəzifələri müəyyənləşdirildi.

QSC rəhbərliyi ilə əməkdaşlıq şəraitində bu vəzifələrin icrasına başlanıldı. İlk müştərək tədbirimiz işçilərin istirahətinin təşkili ilə bağlı oldu.

Üzvlərimizin və ailə üzvlərinin (435 nəfər) Gürcüstanın Kobuleti şəhərinə birhəftəlik turları, Dubay şəhərində istirahətləri, İstanbul şəhərinə qısamüddətli turist səfərləri təşkil olundu. İşində fərqlənən gənc kadrların və işçilərin həvəsləndirilməsi məqsədilə onların da Yeni ili və Novruz baryamlarında bu səfərlərdən bəhrələnmələri təmin olundu.

**Hörmətli nümayəndələr!**

Mən Sizin diqqətinizə Metropolitendə işçilərin əməyinin mühafizəsinin təşkili məsələləri ilə bağlı gördüyümüz işləri çatdırmaq istərdim. Bu məsələ xüsusi və daimi olaraq Metropoliten İşçiləri Həmkarlar İttifaqının nəzarətindədir. 2016-cı ildə əmrlə aparatda fəaliyyət göstərən əməyin təhlükəsizliyi ilə bağlı struktur yenidən qurulmaqla, "Sağlamlıq, əməyin təhlükəsizliyi və ətraf mühitin mühafizəsi" şöbəsi adlandırılaraq birbaşa QSC-nin sədrinə tabe edildi. Bu isə bütün sahələrdə iş prinsiplərinin optimallaşdırılmasına, işçilərin sağlamlığının təminatına, layiqli iş yerlərində çalışmasına, texniki təhlükəsizlik məsələlərinə diqqətin artırılmasına, yeni texnologiyaların tətbiqi ilə əmək şəraitinin asanlaşdırılmasına böyük təkan vermiş oldu. Şöbənin və müvafiq xidmətlərin vahid mərkəzdə cəmlənməsi sistemli tədbirlərin həyata keçirilməsinə, sahəyə cavabdeh şəxslərin məsuliyyətinin artırılmasına, onların hər hansı təzyiqdən kənar qalmasına, müstəqil, obyektiv fəaliyyət göstərməsinə şərait yaratdı. Belə olduqda, təbii ki, bizim də nəzarətimiz üçün ən geniş meydan açılmış oldu. Hesab edirəm ki, digər sahələr də bu təcrübədən yararlanmaqla işçilərin əməyinin və sağlamlığının mühafizəsində ciddi irəliləyişlərə nail ola bilərlər.

Son dörd ildə bədbəxt hadisələrin qarşısını almaq məqsədilə 215 tədbirə 48 min 326 manata yaxın, əmək şəraitinin yaxşılaşdırılması üçün 314 tədbirə 985 min 652 manatdan artıq, fərdi əmək mühafizə və geyim vasitələrinin alınmasına isə 678 min 800 manata yaxın vəsait xərclənmişdir.

Bütün bunların nəticəsidir ki, Bakı Metropoliteni üzrə istehsalatda xəsarət alma əvvəlki beşilliyə nisbətən 30% azalmışdır.

Hazırda "Bakı Metropoliteni" QSC-də Hərəkət Təhlükəsizliyi üzrə İctimai Müfəttişlər qrupları fəaliyyət göstərir. Onların fəaliyyəti sırf könüllülük prinsipinə söykənir, əlahiddə imtiyazları da yoxdur. Buna baxmayaraq, onlar son üç ildə 250-dən çox reyd keçirmiş, müxtəlif sahələr üzrə aşkarlanmış 643 çatışmazlığın aradan qaldırılmasına nail olmuşlar.



**Bəhruz ƏHMƏDOV,**
**"Bakı Metropoliteni" QSC-nin Hərəkət Xidməti Həmkarlar İttifaqı Komitəsinin sədri**

**Hörmətli qurultay nümayəndələri!**

Biz əməyin mühafizəsi sahəsində daha böyük uğurlara imza ata bilərik. Təəssüf ki, bu sahədə bizdən asılı olmayan, daha yuxarı distansiyalarda həlli mümkün problemlər var.

Bunlar: əmək müfəttişliyi üzrə sahəyə aid milli qanunvericiliyin beynəlxalq normalarla uyğunsuzluğu; qanunvericiliyə riayət edilməsinə nəzarət və profilaktik tədbirlərin balanslaşdırılmış tətbiqi üzrə siyasətin işlənib hazırlanmasının vacibliyi; əmək məsələlərini tənzimləyən orqanlar və digər maraqlı tərəflər səviyyəsində kompleks məlumat bazalarının yaradılması və əlaqələndirilməsinin zəruriliyidir.

Xatırladıram ki, mənim tərəfimdən səsləndirilən bu məsələlər BƏT-in təşkilatçılığı və sosial tərəfdaşlarımızın iştirakı ilə hazırlanmış "Azərbaycan Respublikasının 2016-2020-ci illər üçün "Layiqli Əmək üzrə Ölkə Proqramı"nda da öz əksini tapmışdır.

**Hörmətli qurultay iştirakçıları!**

Mən çıxışı daha iki təkliflə bitirirəm. Təklif edirəm ki, apardığı səmərəli və çoxşaxəli fəaliyyətini nəzərə alaraq, Səttar Suliddin oğlu Möhbalıyevin yenidən AHİK-in sədri vəzifəsinə namizədliyi irəli sürülsün.

Mən sizi ölkə iqtisadiyyatının inkişaf etdirilməsində, insan haqlarının və vətəndaş cəmiyyətinin qorunmasında, demokratik institutların inkişafının və əhalinin sosial problemlərinin aradan qaldırılması sahəsində, respublikamızın beynəlxalq aləmdə müsbət imicinin formalaşdırılması işində göstərdiyi əvəzsiz xidmətlərini və həmkarlar ittifaqlarının fəaliyyətinə verdiyi dəstəyi nəzərə alaraq, qarşıdakı prezident seçkilərində birmənalı olaraq hazırkı ölkə Prezidenti cənab İlham Heydər oğlu Əliyevin namizədliyini dəstəkləməyə çağırıram.

Çıxışımın sonunda təklif edirəm ki, AHİK-in ötən beşillik fəaliyyəti qənaətbəxş hesab edilsin, təftiş komissiyasının məruzəsi təsdiq olunsun.

**Diqqətinizə görə təşəkkür edirəm!**

# Gender bərabərliyi müzakirə olundu



Mərakeşdə keçirilən Beynəlxalq Təhsil Birliyi (BTB) Ümumdünya Qadınlarının III Konqresində Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı (ATİAHİ) Respublika Komitəsinin nümayəndə heyəti də iştirak etmişdir.

Dünyanın müxtəlif ölkələrindən təxminən 700 nümayəndənin qatıldıgı bu tədbirdə Beynəlxalq Təhsil Birliyinin baş katibi Fred van Leuven, prezidenti Susan Hopqud və Avropa Regionu üzrə direktoru Susan Floken və digər fəxri qonaqlar iştirak etmişlər.

Tədbirdə təhsil müəssisələrində liderlik, gender problemləri, sağlam daxili mühitin yaradılmasında həmkarlar ittifaqlarınn iştirakı, uşaq əməyinin istismarı, kənd yerlərində erkən nikah və digər aktual məsələlər əsas müzakirə mövzusu olmuşdur.

Konfrans Birliyinə gender bərabərliyi komissiyasının üzvləri üçün təşkil olunmuş sessiyalarla işini davam etdirmişdir. İngilis, ispan və fransız dilləri üzrə qruplar üzrə aparılan sessiyalarda Beynəlxalq Təhsil Birliyi ilə üzv təşkilatlar arasında gender komissiyalarının əlaqələndirilməsi və gücləndirilməsi, müasir dünyada qadınların statusunu tədqiq etmək, təhsildə qızları və qadınları irəli çəkmək və onların hüquqlarını artırmaq kimi məsələlər müzakirə edilmişdir.

Məlumat üçün qeyd edək ki, konfransı keçirməkdə əsas məqsəd bərabərlik uğrunda hərəkatda Beynəlxalq Təhsil Birliyinə üzv olan təşkilat nümayəndələrini bir araya gətirmək, onların təcrübələrini bölmələri üçün imkanlar yaratmaq olmuşdur.

Səfər zamanı BTB-nin Avropa Regionu üzrə direktoru Susan Floken TİAHİ Respublika Komitəsinin sədr müavini Mirzə Cəfərzadənin başçılıq etdiyi nümayəndə heyətinin üzvləri ilə görüşmüşdür. Görüşdə S.Floken bu ilin may ayında Gender Bərabərliyi ilə bağlı Bakıda keçiriləcək beynəlxalq konfransa ev sahibliyi edəcəyi üçün ATİAHİ RK-nın sədri Səttar Möhbalıyevə dərin təşəkkürünü bildirmişdir. Ona yenidən AHİK-in sədri seçilməsi münasibətilə təbriklərini çatdırmağı xahiş etmişdir.

# Akademiyanın tələbəsi Türkiyədə

Azərbaycan və Türkiyə gəncləri arasında əlaqələrin möhkəmləndirilməsi məqsədilə "Dev Kardeşlik ve Candaşlık Projesi" layihəsi çərçivəsində Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Xəlil Babayev fevralın 9-dan 16-dək Kayseri şəhərində səfərdə olmuşdur.

O, səfərin birinci və ikinci günündə Kayseri Gənclik Mərkəzini, Milli Mücadilə Muzeyində (Kayseri liseyi), Gevher Nesibe Xəstəxanasında (Selcuqlu Uygarlığı Muzeyi), Memar Sinan Məhəlləsində (Memar Sinanın doğulduğu ev), Ağırnas Yeraltı şəhərində olmuş, şəhid məzarlığını, o cümlədən 2016-cı il 15 iyul şəhidi Cennet Yigitin məzarını və xatirə evini ziyarət etmişdir.

Səfərin növbəti günlərində X.Babayev Kayseri Gənclik Xidmətləri və İdman Şöbəsinin müdiri Murat Eskici, Kayseri Valisi Süleyman Kamcı, Kayseri Böyükşəhər Bələdiyyə başqanı Mustafa Çelik, Kayseri müftisi dosent Şahin Guven, Talas kaymakamı Zekeriyya Güney, Hak İş Konfederasyonu Kayseri İl Başkanlığının sədri Serhat Çeliklə görüşmüşdür.




Görüşlər zamanı iki ölkə arasında olan dostluq və qardaşlıq münasibətlərindən, gənclərimiz arasında dialoqun inkişaf etdirilməsi üçün bu cür layihələrin həyata keçirilməsinin önəmindən danışılmışdır.

Türkiyəyə səfərin yekununda ümumilikdə layihənin icrası nəzərdən keçirilmiş, bu layihənin hər iki ölkənin gəncliyinə böyük hədiyyə olduğu vurğulanmış, gələcəkdə də davam etdirilməsi məqsədəuyğun sayılmışdır.

# "Xatirə lövhəsi"




Oğuz rayonunun T.Babayev adına Yaqublu kənd tam orta məktəbində pedaqoji fəaliyyətində xüsusi iz qoymuş müəllimlərin "Xatirə lövhəsi"nin açılış mərasimi olmuşdur. Tədbiri giriş sözü ilə məktəbin direktoru İmran Verdiyev açmışdır. Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Oğuz Rayon Komitəsinin sədri Telman Mustafayev çıxış edərək bu tədbirin əhəmiyyətindən danışdı.

Dedi ki, ən yaxşıların qiymətləndirilməsi, tanıdılması gənc müəllimlərin peşəkarlıq həvəsini daha da artırır. Belə tədbirlər mənəvi stimullaşdırma baxımından çox faydalıdır.

Telman müəllim yeri gəlmişkən bildirdi ki, biz gələcəyimiz naminə keçmişi xatırlamaqla vəzifəmizi bitmiş hesab etməməli, dövrünün qabaqcılı olan pedaqoqların iş təcrübəsini öyrənib gənc nəslə ötürməliyik.

Mərasimdə digər çıxışlar da dinlənildi.

Çıxışlar başa çatdıqdan sonra "Xatirə lövhəsi"nin önünə tər çiçək dəstələri qoyuldu, şagirdlərin hazırladıqları ədəbi-bədii kompozisiya təqdim olundu.

**Səhifəni hazırladı: Bəyalı RZAYEV**

# Əmək şəraitinin yaxşılaşdırılması tələbi

Peruda "Alfred H Knight" mineral analiz şirkətinin müştərək müqavilənin şərtlərinə əməl etməməsi işçilərin etirazına səbəb olub. İndustriALL Qlobal İttifaqına bağlı FETRİMAP-CGTP Həmkarlar İttifaqı şirkətlə danışıqlar masasına otursa da, bir nəticə əldə edilməyib. İttifaq "Alfred H Knight"ın Lima, Arequipa, Kallaodakı müəssisələrində aparılan yoxlamalar zamanı yetərsiz əmək şəraitini əsas göstərərək etiraz aksiyası təşkil edib. Ölkənin Əmək Nazirliyi fevralın 19-da hər iki qurum arasında danışıqların bərpası üçün toplantı təyin etsə də, şirkət rəhbərliyi razılığa yanaşmayıb.

CGTP Həmkarlar İttifaqı "Alfred H Knight"da əmək şəraitinin yaxşılaşdırılması və bir sıra başqa müəssisələrdə işçi ixtisarının dayandırılması tələbi ilə martın 1-də böyük aksiya keçirəcəyini açıqlayıb. Onlar işəgötürən təşkilatların həmkarlar ittifaqı ilə münasibətlərini normallaşdırmağı və ratifikasiya olunmuş konvensiyalara uyğun fəaliyyət göstərməyi tələb edirlər.

İndustriALL-ın baş katibi Valter Sançez mərkəzi İngiltərədə yerləşən "Alfred H Knight" şirkətində əsas işçi hüquqlarının təminatı üçün yerli həmkarlar təşkilatını birlikdə mübarizəyə səsləyib. O qeyd edib ki, şirkət müştərək müqavilə bağlamalı və iş qəzalarının qarşısını almaq üçün təhlükəsizlik tədbirlərinin yetərliliyini diqqətdə saxlamalıdır.

# Miqrantların sosial və mədəni inkişafına şərait yaradılmalıdır



20 fevral-Dünya Sosial Ədalət Günü ilə əlaqədar Beynəlxalq Əmək Təşkilatının baş katibi Qay Rayder miqrant içilərin hazırkı vəziyyəti və qarşıya çıxan problemlər barədə mətbuata açıqlama verib.

O bildirib ki, bu gün ayrıseçkilik və şiddətlə üz-üzə qalan 150 milyona yaxın miqrant işçilərə diqqət ayırmalıyıq. "Onların 44 faizi qadınlardır. Miqrantların əksəriyyəti birbaşa, yaxud dolayı yolla yaxşı iş şəraiti axtarışı ilə öz yurdlarını tərk etməli olurlar. Ancaq onların əksəriyyəti daha az maaşla və əmək şəraiti standartlardan aşağı olan yerlərdə işləməyə məcbur qalır. Bütün çalışanlar kimi miqrant işçilər də iş yerində lazımi hörməti görməlidir. Bu cəmiyyətin sosial sferasını qorumaq üçün vacibdir. İşlə bağlı xarici ölkələrə köçən ailələrin cəmiyyətdə istər iqtisadi, istərsə də mədəni baxımdan inkişafı üçün onlara fürsət verilməlidir. Rəhbərlik etdiyim qurumun bu yöndə apardığı çalışmalar və hazırladığı sənədlər bu gün miqrasiyanın daha çox olduğu ölkələr üçün yararlı ola bilər. BƏT ədalətli miqrasiyanın istər qlobal, istərsə də regional səviyyədə qəbuluna təşviq edir. 2016-cı ildə BMT miqrasiya prosesini yaxşılaşdırmaq və onların qarşılaşdıqları zorluqları aradan qaldırmaq üçün Təhlükəsiz və Davamlı Köç üzrə Qlobal Sözləşmə tərtib etməyə qərar verib. Düşünürəm ki, bu sözləşmənin miqrasiya problemi ilə üz-üzə qalan dövlətlər tərəfindən tətbiqi və inkişaf etdirilməsi gələcəkdə işçi miqrantların istiqamətinə təsir edən bir vasitə olacaq".

**Cavid SƏFƏROV**

# "Gənclərin məşğulluğu sahəsində tərəfdaşlıq" layihəsinin ikinci fazası işə salınır

**Dünya iqtisadi böhranı Şərqi Avropa və Mərkəzi Asiya ölkələrinin bazarlarında gənclərin onsuz da mürəkkəb olan vəziyyətini gərginləşdirib.**



Belə ki, subregionda: iş axtarmağa can atan insanların sayının artması; layiqli iş yerləri problemi, qeyri-formal məşğulluğun geniş yayılması; iqtisadiyyatın artımının məşğulluğun artmasına zəif təsiri; işçilər və işəgötürənlər arasında münasibətlərin dəyişməsi, distant məşğulluğun çoxluğu; məşğulluq institutlarının yenilənməsi ehtiyacı müşahidə olunur. Bu və bir çox başqa məsələlərin həllinə cavablar axtarılır. Gənclərin məşğulluq böhranı Beynəlxalq Əmək Konfransının (BƏK) gündəliyinə çıxarılıb (2012-ci il). 185 ölkənin hökumət nümayəndələri, sahibkarlar təşkilatları və həmkarlar ittifaqları gənclərin məşğulluq böhranının aradan qaldırılması ilə əlaqədar təcili ölçülər götürülməsini bildirmişdilər. Bu çağırışlara cavab olaraq "LUKOYL" şirkətinin maliyyəsi ilə BƏT tərəfindən "Gənclərin məşğulluğu sahəsində tərəfdaşlıq" layihəsi hazırlandı. Artıq bu layihəyə Braziliya, Çin, Hindistan və Cənubi Afrika ölkələri də qatılıblar.

Cari il fevralın 13-dən 17-nə qədər İtaliyanın Turin şəhərində yerləşən Beynəlxalq Treninq Mərkəzində Şərqi Avropa, Mərkəzi Asiya və BRİCS ölkələri üçün "MDB dövlətlərində gənclərin məşğulluğu sahəsində tərəfdaşlıq" layihəsinin II fazası çərçivəsində konfrans keçirilmişdir. Burada Azərbaycan, Qazaxıstan, Rusiya Federasiyası, Özbəkistan, Qırğızıstan, Tacikistan, Gürcüstan, Ermənistan, Braziliya və Çin dövlətlərinin hökumət, həmkarlar ittifaqı və işəgötürənlər təşkilatlarının nümayəndələri iştirak etmişlər. Tədbirdə məsul şəxslərin və ekspertlərin məruzələri dinlənildi, layihənin yeni fazasının strategiyası barədə məlumat verildi. Bildirildi ki, BƏT-in baş direktoru Qay Rayder və Rusiyanın "LUKOYL" neft şirkətinin prezidenti Vahid Ələkbərov 2018-2022-ci illərdə gənclərin məşğulluğu sahəsində təşəbbüslərin həyata keçirilməsi məqsədilə əməkdaşlığın davam etdirilməsi barədə saziş imzalayıblar. Gələcək fəaliyyət BMT-nin Qlobal çağırışı əsasında gənclərə layiqli iş yerlərinin yaradılması istiqamətində qurulacaqdır.

Konfrans günlərində "Şərqi Avropa və Mərkəzi Asiya ölkələrinin əmək sferasında tendensiyalar", "Gənclərin məşğulluğu sahəsində korporativ siyasət, BƏT ilə əməkdaşlıq", "Gənclərin məşğulluğu sahəsində Avropa Birliyində vəziyyət və innovasiyalar" üzrə məlumatlar, BƏT-in Mərkəzi Ofis mütəxəssislərinin video və əyani prezentasiyaları, MDB ölkələri, Gürcüstan, Braziliya və Çinin təcrübəsi ilə bağlı ekspert açıqlamaları və tövsiyələr dinlənildi. İştirakçılar 2013-2017-ci illəri əhatə edən "MDB dövlətlərində gənclərin məşğulluğu sahəsində tərəfdaşlıq" layihəsi üzrə görülmüş işlərə və əldə olunmuş nəticələrə münasibət bildirərək təkliflər irəli sürdülər.

Xüsusi önəm qrup işlərinə verilmiş, adıçəkilən ölkələrin əmək bazarı, gənclərin məşğulluğu, peşə yönümü və peşə təhsili sahəsində qabaqcıl təcrübələrin tətbiqi imkanları araşdırılmışdır. "Yaşıl iqtisadiyyata keçid və gənclərin məşğulluğu", "Gənclərin məşğulluğunda gender aspektləri", "Əməyin gələcəyi", "Əmək bazarı institutları", "Kənd yerlərində sahibkarlığın inkişafı, formal iqtisadiyyata keçid" mövzuları üzrə təqdimatlar keçirildi. Əmək bazarına təsir göstərən makroiqtisadi aspektlər, dövlət məşğulluq xidmətləri, əmək bazarında aktiv və passiv proqramlar, gənclərin məşğulluğunu stimullaşdıran tədbirlər, müsbət təcrübələr, gənclərin sosial müdafiəsinin inkişafı, peşə yönümü xidmətlərinin və məqsədli proqramların hazırlanması və həyata keçirilməsində ölkələrin rolu və yeri müəyyənləşdirilmiş, subregion ölkələri üçün tövsiyələr səsləndirilmişdir.

Tədbirin yekun günü "COMAU" sənaye robotları şirkətinə tanışlıq səfəri edən konfrans iştirakçıları müəssisənin hökumət, təhsil ocaqları və özəl sektorla partnyorluq əməkdaşlığı təcrübəsi barədə geniş məlumat da əldə etdilər. Bu müəssisə 1973-cü ildən 17 ölkədə 9 min nəfər işçi ilə fəaliyyət göstərir, İtaliyanın Pyemont regionu tərəfindən vergi güzəştləri ilə dəstəklənir. Kadr siyasətində daha çox gənclərə önəm verilir.

***Konfransda AHİK-in şöbə müdiri Namiq Hüseynov "Gənclərin əmək bazarında milli tendensiyalar və çağırışlar" mövzusunda prezentasiya ilə çıxış etmişdir.***




**Beşyaşlıların hazırlıq sinfində dərs deyirəm, avqust ayında məzuniyyətdən qayıtmışam. 25 manat beşgünlük və sentyabr ayının 05-dən 15-dək 76 manat əməkhaqqı almışam. Sentyabr ayının 18-dən 29-dək hər gün işə getsəm də, mənə zəhmət haqqı ödənilməyib. Soruşduqda səbəb qoydular ki, beşyaşlı uşaqların təlimi 02 oktyabrdan başlayır. Əmr altında işdə olduğum halda, doğrudanmı mənə əməkhaqqı çatmamalıdır?**

**Səmənnaz HƏSƏNOVA,**
*Şərur rayonu, Kərimbəyli kəndi*

- Sorğunuzdan məlum olur ki, məzuniyyətdən qayıdaraq əmrlə işdə hesab olunmusunuz. Buna uyğun olaraq da həm avqust ayında, həm də sentyabrda əməkhaqqı almısınız.

Əmrlə işdə hesab olunduğunuz üçün Siz sentyabr ayının qalan günlərinin də əməkhaqqını almalısınız. Bu, beşyaşlı uşaqların təliminin nə vaxt başlamasından asılı deyildir. Almadığınız günlərin əməkhaqqının hesablanıb Sizə verilməsi üçün mühasibatlığa müraciət etməyiniz lazımdır. Əgər başqa bir səbəb yoxdursa (məktəbdə olmama və s. üzrsüz səbəblər) əməkhaqqınız hesablanıb ödənilməlidir.

**37 ildir ibtidai sinif müəllimi işləyirəm. 2017-ci ildə ümumtəhsil müəssisələrində işləyən müəllimlərin bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsində iştirak etmişəm. Ümumilikdə 29 suala düzgün cavab verməklə, ixtisasdan 18 bal toplamışam. Bunun nəticəsi olaraq dərslərim 14 saatdan 8 saata endirilib və sinfim əlimdən alınaraq sinif rəhbərliyimə son verilib. Mənə başqa siniflərdə əlavə dərslər verilib. Bu, valideynlərin də, kəskin narazılığına səbəb olub. Bilmək istərdim, bu nə dərəcədə doğrudur, diaqnostik qiymətləndirmənin şərtlərinə görə dərs bölgüsü necə aparılmalıdır, sinif rəhbərliyi əlimdən alınmalıdırmı?**

**Minayə MƏHƏRRƏMOVA,**
*Tovuz rayonu.*

- Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli 13 nömrəli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda yüksək nüfuzlu təhsilverənin formalaşdırılması əsas hədəflərdən biri kimi müəyyənləşdirilmiş, bu hədəfə nail olmaq üçün nəticə əsaslı əməkhaqqı və stimullaşdırma sisteminin yaradılması nəzərdə tutulmuşdur.

Təhsil Nazirliyinin 07.10.2015-ci il tarixli 994 nömrəli əmri ilə təsdiq edilmiş "Ümumtəhsil müəssisələrində işləyən müəllimlərin bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsinin aparılması Qaydaları"nda, 15.05.2017-ci il tarixli 54 nömrəli əmri ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Təhsil Nazirliyi sisteminə daxil olan ümumtəhsil müəssisələrində müəllimlərə tələbatın müəyyənləşdirilməsi pedaqoji kadrların işə qəbulu və yerdəyişməsi Qaydaları"nda və Ərazi Maliyyə Hesablaşma Mərkəzlərinin nümunəvi Əsasnaməsində təhsil müəssisələrinin rəhbərlərinə müəllimlər arasında dərs yükünün bölüşdürülməsi, onların karyera inkişafı əməyinin rəğbətləndirilməsi zamanı diaqnostik qiymətləndirilmənin nəticələrinin nəzərə alınması tapşırılmışdır.

Məktəbin direktoru da dərs yükünün bölüşdürülməsi zamanı qeyd olunanları əsas götürmüş və Sizin 14 saat dərsinizi daha yuxarı nəticə əldə edən başqa müəllimə vermiş, dərs yükünüzü azaltmışdır. Əmr verilərkən məktəb direktoru Təhsil Nazirliyinin 06.09.2017-ci il tarixli 02-05-2589/15 №-li təlimati məktubuna əsaslanmışdır.

Lakin diaqnostik qiymətləndirmə zamanı aşağı nəticə əldə etmiş müəllimdən sinif rəhbərliyinin alınaraq daha yüksək nəticə göstərmiş müəllimə verilməsi məsələsi nə qeyd olunan sənədlərdə, nə də məktəb direktorunun əmr verərkən əsaslandığı təlimati məktubda göstərilməmişdir.

Təhsil nazirinin 05 mart 2009-cu il tarixli 270 №-li əmri ilə "Sinif rəhbəri haqqında əsasnamə" təsdiq edilmişdir. Həmin əsasnaməyə görə, sinif rəhbəri məktəb direktoru tərəfindən təyin edilir və vəzifədən azad edilir. Sinif rəhbərinin fəaliyyəti bir çox zəmin üzərində, o cümlədən, sinif kollektivində vəziyyət, şagirdlərin tərbiyəlilik səviyyəsi, onların sosial vəziyyəti, ailə şəraitləri əsasında qurulur.

Əsasnaməyə əsasən, sinif rəhbərinin fəaliyyət sahəsi tərbiyə işi, təhsil müəssisələrində, eləcə də, şəhər, rayon çərçivəsində təcrübə mübadiləsi üzrə tədbirlərdə iştirak etmək və sinifdə şagirdlərlə, tədris prosesinin digər iştirakçıları ilə qarşılıqlı fəaliyyətdə olan pedaqoji işçilərlə birgə fəaliyyət göstərməkdir.

Yuxarıda qeyd etdiyimiz sənədlərin qəbul edilməsindən sonra bu əsasnamədə dəyişiklik edilməmiş və sinif rəhbərliyi diaqnostik qiymətləndirmənin nəticəsindən asılı edilməmişdir.

Sinif rəhbərliyinin yenidən Sizə verilməsi üçün məktəbin direktorluğuna və tabe olduğunuz yuxarı təşkilatlara müraciət edə bilərsiniz. Cavablar Sizi qane etməzsə, məsələnin həllini məhkəmə qaydasında mübahisələndirmək, yəni iddia ərizəsi ilə müvafiq məhkəməyə müraciət etmək hüququnuz vardır.

**Sayğacın dəyişdirilməsi və ödəniş etməyimə şərait yaratmağınız üçün müraciət edirəm. Qaz sayğacı qazı zərərimə sərfiyyatla havaya vurur. Qaz sayğac ustasının səhvi nəticəsində və qaz işçilərinin məsuliyyətsizliyi, bu şəraiti yaratmışdır. Sayğacda yaranan nasazlığa görə mən məsuliyyət daşımalıyammı? Çünki, sayğac texniki qaydalara cavab vermir. Belə halda hansı zəruri tədbirlər görülməlidir?**

**Şakir AĞAYEV,**
*Cəlilabad şəhəri.*

- Qaz sayğaclarının quraşdırılması və istismarı, qazın alqı-satqısı müqaviləsi əsasında qaz paylayıcısı ilə istehlakçı arasında qaz təchizatı üzrə münasibətləri, şəbəkəyə qoşulma və şəbəkədən ayrılma şərtləri, qazın dəyərinin ödəmə şərtləri və digər məsələlər Nazirlər Kabinetinin təsdiq etdiyi "Qazdan istifadə" Qaydaları ilə tənzimlənir.

Məktubunuzdan məlum olur ki, məişət qaz qurğularından istifadə üçün quraşdırılmış, abonent kimi istifadə etdiyiniz qaz sayğacı nasaz vəziyyətdədir, texniki şərtlərə uyğun deyil.

Qaydaların 4-cü bölməsinə (qaz sayğaclarının quraşdırılması və istismarı) əsasən, qaz paylayıcısı ilə istehlakçı arasında balans mənsubiyyəti sərhədində qazın sərfinə görə hesablama aparılması üçün layihəyə uyğun olaraq, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən tipi təsdiq edilərək dövlət reyestrinə daxil edilmiş və sertifikatlaşdırılmış müvafiq qaz sayğacları quraşdırılır. Tipi təsdiq edilməmiş sayğacların və digər ölçmə vasitələrinin istismarı qadağandır. Qaz sayğacları qeyd edilən komitə tərəfindən müəyyən edilmiş dövlət standartlarının tələblərinə uyğun olaraq dövlət yoxlamasından keçirilməlidir. Qaz sayğaclarının növbəti dövlət yoxlaması onların texniki pasportlarında göstərilmiş müddətdə həyata keçirilir. Bu zaman istehlakçılardan vəsait tələb etmək qadağandır. Lakin belə yoxlamadan keçirilmə istehlakçının arzusu ilə olursa, onda vəsait istehlakçı tərəfindən ödənilməlidir.

Məişət qaz qurğularının istifadəsi üçün qaz sayğacı qaz paylayıcısının (alqı-satqı müqaviləsi əsasında istehlakçılara qazpaylayıcı şəbəkə vasitəsilə qazın paylanmasının, satılmasının və bu fəaliyyətlərlə əlaqədar xidmətləri həyata keçirən hüquqi şəxs) vəsaiti hesabına, sənaye qaz qurğularının istifadəsi üçün isə qaz sayğacı istehlakçının vəsaiti hesabına təchiz edilir, quraşdırılır və dəyişdirilir.

Qaz sayğaclarının üzərində qeyd olunan dövlət komitəsinin və qaz paylayıcısının sayğacın işlək vəziyyətdə olduğunu təsdiq edən plombu olmalıdır. Bu plomblar kənar müdaxilələrdən qorunmaq üçün, fiziki şəxs olan istehlakçılara münasibətdə sayğaclar qaz paylayıcısı tərəfindən müvafiq örtüklə örtülməli və işlək vəziyyətdə saxlanmalıdır.

İstehlakçının təqsiri olmadan zədələnmiş qaz sayğacının təmir olunması, texniki baxışdan keçirilməsi, dəyişdirilməsi (yenisi ilə əvəz olunması) və quraşdırılması məişət qaz qurğularının istifadəçiləri üçün qazpaylayıcı tərəfindən, zədələnmə istehlakçının təqsiri üzündən baş verdikdə isə istehlakçının özünün vəsaiti hesabına həyata keçirilir. Əgər qaz paylayıcısı tərəfindən qaz sayğacının dəyişdirilməsi, təmir olunması və ya texniki baxışdan keçirilməsi istehlakçıdan tələb olunursa, bu zaman qaz paylayıcısı tərəfindən həmin tələbin hüquqi əsası göstərilməlidir.

Qaz sayğaclarının quraşdırılması və istismarı üçün lazım olan bütün şərtləri nəzərinizə çatdırdıq. Əgər bu şərtlərin hamısına əməl olunursa və sayğacın dəyişdirilməsinə dair müraciətinizə Cəlilabad Qaz-İstismar sahəsində baxılmırsa və ya onların cavabı sizi qane etmirsə, rayon məhkəməsinə müraciət etməyiniz tövsiyə edilir. Bu, müqavilənin özündə də qeyd edilmişdir: Müqavilə üzrə yaranan mübahisələr qarşılıqlı anlaşma yolu ilə həllini tapmadıqda, tərəflər məhkəməyə müraciət edə bilərlər.

**Sorğuları şərh etdi: AHİK-in Hüquq Şöbəsi**

# ÜLFƏT

AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARININ QƏZETİ

WWW.ULFET-AZ.COM

Son səhifə

ŞƏNBƏ, 24 FEVRAL 2018-Cİ İL / №08 (1078)




## TƏBRİK



**Bu günlərdə "Azərbkolxozlararasısağlamlıq" Respublika Birliyi sədrinin müavini Rəhim Hacıyevin 65 yaşı tamam olub**

R.Hacıyev Gürcüstan Respublikasının Marneuli rayonunda anadan olsa da, əmək fəaliyyətinə Bakı şəhərində başlamışdır. 1980-ci ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun axşam şöbəsini bitirərək inşaatçı-mühəndis peşəsinə yiyələnmişdir.

*Müxtəlif vəzifələrdə çalışmış Rəhim müəllim 1983-cü ilin noyabr ayından "Azərbkolxozlararasısağlamlıq" Respublika Birliyinə sədr müavini vəzifəsinə seçilmişdir. 2002-ci ildən etimad göstərib ona həm də Nabran qəsəbəsində fəaliyyət göstərən "Şahdağ" İstirahət Evinə rəhbərlik etmək həvalə olunmuşdur.*

35 illik əmək fəaliyyəti dövründə R.Hacıyev özünü məsuliyyətli işçi, bacarıqlı təşkilatçı kimi göstərə bilib. O, "Tərəqqi" medalı, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının fəxri fərmanları və 20 illik Yubiley medalı ilə təltif edilmişdir.

Rəhim müəllimi yubiley yaşı münasibətilə təbrik edir, ona cansağlığı və işlərində uğurlar arzulayırıq.

**"Azərbkolxozlararasısağlamlıq" Respublika Birliyinin kollektivi**

## Yeniyetmələr qələbə ilə başladılar






**Bakı İdman Sarayında yeniyetmə və gənclər arasında sərbəst və yunan-Roma güləşi üzrə Azərbaycan çempionatı keçirilib.**

Yeniyetmələrin yarışında klub və cəmiyyətlərin yığma komandalarının üzvü olan 2001-2002-ci il təvəllüdlü, gənclərin yarışında isə 1998-2000-ci il təvəllüdlü idmançılar mübarizə aparıb. Yarışın ikinci günündə 45, 48, 51, 55, 60, 65, 71, 80, 92 və 110 kq. çəki dərəcələrində sərbəst güləş üzrə 222 pəhləvan mübarizə aparıb.

Çempionatda "Zenit" İdman Cəmiyyətinin yetirmələri də uğurla çıxış edir. Yeniyetmələrin qarşılaşmasında cəmiyyətin güləşçiləri ümumilikdə 6 medal qazanıblar. Əlihəsən Əmirli (48 kq.) və Turan Bayramov (65 kq.) öz çəki dərəcələrində bütün rəqiblərini məğlub edib və qızıl medala layiq görülüblər. Azər Əhmədov (55 kq.), Elnur Rüstəmov (45 kq.), Elvin Dünyamalıoğlu (71 kq.) və Sənan Hümbətov (51 kq.) bürünc medal uğrunda görüşlərdə qalib gəliblər. İzzət Cəfərov (51 kq.) medalçıların sırasına düşə bilməyib, o, beşinci yeri tutub. Yetirmələrinin uğur qazanmasında məşqçi-müəllimlər Cavid Qurbanzadə, Amil Abdullayev və Fəxrəddin Nuriyevin də rolunu qeyd etmək lazımdır.

*Hər çəki dərəcəsində mükafata layiq yerlər tutmuş idmançılar medal və diploma təltif olunmaqla yanaşı, yığma komandanın heyətinə cəlb olunurlar.*

## Cəmiyyətin samboçuları fərqləniblər



Şağan Olimpiya İdman Kompleksində sambo üzrə Azərbaycan birinciliyi və çempionatına yekun vurulub. Yeniyetmələr (2000-2002), gənclər (1998-1999) və kişilər arasında keçirilən yarışda 500-ə yaxın idmançı qalib adı uğrunda mübarizə aparıb.

"Zenit" İdman Cəmiyyətinin samboçuları ustalıq nümayiş etdirərək ümumilikdə 5 medala (2 qızıl, 2 gümüş, 1 bürünc) sahib olublar.

Yeniyetmələr arasında Abdulla Abdullayev (70 kq.) və Vüqar Ağcayev (75 kq.) bütün görüşləri qələbə ilə başa vuraraq fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

Gənclərin yarışında Abdulla Abdullayev (68 kq.) və Vüqar Ağcayev (74 kq.) yalnız finalda rəqiblərinə uduzaraq ikinci sırada qərarlaşıblar.

Kişilər arasında təşkil olunan sambo üzrə Azərbaycan çempionatında isə Tural Allahverdiyev (62 kq.) üçüncü olub.

Məşqçi-müəllim Yaqub Abdullayev deyib ki, ardıcıl məşq prosesləri və nizam-intizam idmançılarımızın da yarışlarda fərqlənməsinə, mükafatlar qazanmasına zəmin yaradır.

## Paytaxt birinciliyindən uğurlar



**Hövsan Olimpiya İdman Kompleksində gənclər arasında sərbəst və yunan-Roma güləşi üzrə Bakı şəhər birinciliyi keçirilib.1998-2000-ci il təvəllüdlü gənclər arasında təşkil olunan yarışa 14 idmançı ilə qatılan "Pəhləvan" İdman Klubu ümumilikdə 6 medal ( bir qızıl, iki gümüş və üç bürünc medal) əldə edib.**

**Sərbəst güləş** üzrə yarışlarda Asxab Həmidov (92 kq.) bütün rəqiblərini məğlub edərək fəxri kürsünün ən yüksək pilləsinə sahib olub. Surxay Həmidov (125 kq.) və Murad Muradov (79 kq.) finalda məğlub olaraq ikinciliyi özlərinə təmin ediblər. Elmar Cəlilov (79 kq.) isə bürünc medalla kifayətlənməli olub.

**Yunan-Roma güləşi** üzrə yarışda isə Cavad Əkbərli (55 kq.) və Müseyib Rəhimov (60 kq.) üçüncü yeri tutublar.

**Materialları hazırladı: Azər MUSTAFAYEV**

## Dəri əlcək ustalarının qalibiyyəti



Yeniyetmə boksçular arasında Bakı şəhər açıq birinciliyi başa çatıb. Boks Mərkəzində təşkil olunan yarışda 229 idmançı gücünü yoxlayıb. 6 gün davam edən yarışın yekununda ən güclülərin adı müəyyənləşib. 2004-2005-ci il təvəllüdlü boksçular arasında təşkil olunan birincilikdə qalib adını qazanan idmançılardan biri də "Zenit" İdman Cəmiyyətinin yetirməsi Turan Hacıyevdir. O, 41,5 kq. çəki dərəcəsində yarışıb. Eyni çəkidə mübarizə aparan həmkarı Fərid Kosayev bürünc medal qazanıb. Cəmiyyətin digər boksçusu Amil Mayılov ( 48 kq.) da üçüncü yerlə kifayətlənib. Dəri əlcək ustaları yarışa məşqçi-müəllimlər Təvəkkül Məmmədov və Ceyhun Rüstəmov tərəfindən hazırlaşdırılıblar.

## ALLAH RƏHMƏT ELƏSİN!

Təhsil İşçiləri Azad HİRK-in rəhbərliyi və aparat işçiləri Aviasiya İşçiləri HİRK-in sədri Bəkir Yusifova əzizi
**ŞİRZAD YUSİFOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Xidmət-İş" Hİ Federasiyasının prezidenti İlyas Əliyev və aparat işçiləri Aviasiya İşçiləri HİRK-in sədri Bəkir Yusifova əzizi
**ŞİRZAD YUSİFOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Mədəniyyət İşçiləri HİRK-in sədri Cəmilə Səttarova və aparat işçiləri Aviasiya İşçiləri HİRK-in sədri Bəkir Yusifova əzizi
**ŞİRZAD YUSİFOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Rabitə İşçiləri Müstəqil HİRK-in sədri Seymur Orucov və aparat işçiləri Aviasiya İşçiləri HİRK-in sədri Bəkir Yusifova əzizi
**ŞİRZAD YUSİFOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Dövlət İdarələri və İctimai Xidmət İşçiləri HİRK-in sədri Hikmət Osmanov və aparat işçiləri Aviasiya İşçiləri HİRK-in sədri Bəkir Yusifova əzizi
**ŞİRZAD YUSİFOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Aviasiya İşçiləri HİRK-in sədri Bəkir Yusifov, Rəyasət Heyəti və kollektivi iş yoldaşları Məlahət Məmmədovaya atası
**AZƏR AŞUMOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Dəmiryolçuların Müstəqil HİRK-in sədri Fəzail Bağırov və aparat işçiləri "Naxçıvan Dəmir Yolları" MMC-nin BHİK sədri Eyvaz Əsgərova anası
**SAHİBƏ xanımın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Dəmiryolçuların Müstəqil HİRK-in sədri Fəzail Bağırov və aparat işçiləri Aviasiya İşçiləri HİRK-in sədri Bəkir Yusifova əzizi
**ŞİRZAD YUSİFOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Neft və Qaz Sənayesi İşçiləri HİRK-in sədri Cahangir Əliyev və aparat işçiləri Aviasiya İşçiləri HİRK-in sədri Bəkir Yusifova əzizi
**ŞİRZAD YUSİFOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Elektroenergetika və Elektrotexnika Sənayesi İşçiləri HİRK-in sədri Rafiq İldarov və aparat işçiləri Aviasiya İşçiləri HİRK-in sədri Bəkir Yusifova əzizi
**ŞİRZAD YUSİFOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Avtomobil Nəqliyyatı və Yol Təsərrüfatı İşçiləri Hİ-nin sədri Etibar Əliyev və aparat işçiləri Aviasiya İşçiləri HİRK-in sədri Bəkir Yusifova əzizi
**ŞİRZAD YUSİFOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bələdiyyə İşçiləri HİRK-in sədri Məhərrəm Xəlilov və aparat işçiləri Aviasiya İşçiləri HİRK-in sədri Bəkir Yusifova əzizi
**ŞİRZAD YUSİFOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Kənd-Qida-İş" Hİ Federasiyasının sədri Tofiq Quliyev və aparat işçiləri Aviasiya İşçiləri HİRK-in sədri Bəkir Yusifova əzizi
**ŞİRZAD YUSİFOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Milli Elmlər Akademiyası Azad Hİ-nin sədri Habil Qurbanov və aparat işçiləri Aviasiya İşçiləri HİRK-in sədri Bəkir Yusifova əzizi
**ŞİRZAD YUSİFOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Dəniz Nəqliyyatı İşçiləri HİRK-in sədri Səməd Allahverdiyev və aparat işçiləri Aviasiya İşçiləri HİRK-in sədri Bəkir Yusifova əzizi
**ŞİRZAD YUSİFOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Sahibkarlıq, Özəl Elm və Yüngül Sənaye İşçiləri HİRK-in sədri Məhəmmədəli Salmanov və aparat işçiləri Aviasiya İşçiləri HİRK-in sədri Bəkir Yusifova əzizi
**ŞİRZAD YUSİFOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Səhiyyə İşçiləri HİRK-in sədri Emin Əfəndiyev və aparat işçiləri Aviasiya İşçiləri HİRK-in sədri Bəkir Yusifova əzizi
**ŞİRZAD YUSİFOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Təbii Sərvətlər və Ekologiya İşçiləri HİRK-in sədri Telman Quliyev və aparat işçiləri Aviasiya İşçiləri HİRK-in sədri Bəkir Yusifova əzizi
**ŞİRZAD YUSİFOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Yerli Sənaye və Kommunal-Məişət Müəssisələri İşçiləri HİRK-in sədri Telman Hacıyev və aparat işçiləri Aviasiya İşçiləri HİRK-in sədri Bəkir Yusifova əzizi
**ŞİRZAD YUSİFOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Azərsu" Təsərrüfatı İşçiləri HİRK-in sədri Akif Məmmədov və aparat işçiləri Aviasiya İşçiləri HİRK-in sədri Bəkir Yusifova əzizi
**ŞİRZAD YUSİFOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Kurort" Qapalı Səhmdar Cəmiyyətinin prezidenti Əbil Ağasıyev və aparat işçiləri Aviasiya İşçiləri HİRK-in sədri Bəkir Yusifova əzizi
**ŞİRZAD YUSİFOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Metropoliten İşçiləri Hİ-nin sədri Arif Mərdanov və aparat işçiləri Aviasiya İşçiləri HİRK-in sədri Bəkir Yusifova əzizi
**ŞİRZAD YUSİFOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının rektoru Hüseyn Qaraşov və kollektivi Aviasiya İşçiləri HİRK-in sədri Bəkir Yusifova əzizi
**ŞİRZAD YUSİFOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Turizm və Ekskursiyalar Şurasının sədri Fikrət Nuriyev və aparat işçiləri Aviasiya İşçiləri HİRK-in sədri Bəkir Yusifova əzizi
**ŞİRZAD YUSİFOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Azərbkolxozlararasısağlamlıq" Respublika Birliyinin sədri İmran Rzayev və aparat işçiləri Aviasiya İşçiləri HİRK-in sədri Bəkir Yusifova əzizi
**ŞİRZAD YUSİFOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"AHİT" İB-nin sədri Nadir Əliyev və aparat işçiləri Aviasiya İşçiləri HİRK-in sədri Bəkir Yusifova əzizi
**ŞİRZAD YUSİFOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İctimai Televiziya və Radio Yayımları Şirkətinin ilk Həmkarlar İttifaqı Komitəsinin sədri Elşən Səfərov və aparat işçiləri Aviasiya İşçiləri HİRK-in sədri Bəkir Yusifova əzizi
**ŞİRZAD YUSİFOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Quba Rayon Komitəsinin sədri Zülfüra Baxışova Müdafiə Nazirliyinin BHİK sədri Abiyat Ağadadaşovaya bacısı
**SOLMAZ xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Şəki Rayon Komitəsinin sədri Rəhman Məmmədov RK-nın təşkilat işləri və hüquqi məsələlər üzrə şöbəsinin müdiri Samir Əhmədzadəyə əzizi
**TÜKƏZBAN QULİYEVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**Baş redaktor:**
AQİL DADAŞOV
**Təsisçi:**
Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası

Qeydiyyat № 147
Tiraj: 7596
Sifariş: 555
Redaksiyanın ünvanı:
Bakı - 1005,
Gənclər meydanı 3
Telefonlar: 492-75-55; 492-42-47

"Azərtürk Bank"
Hesab nömrəsi:
AZ08AZRT3809001944
0000132001
Kod: 5:0:7:6:9:9
VÖEN: 1700349431
İndeks: 0271

Qəzet redaksiyanın kompüter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" Nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.
e-mail: ulfet-az@mail.ru
Sərbəst qiymət